RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 114 (8430) ÇƏRŞƏNBƏ, 17 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan koronavirusla qətiyyətli mübarizə aparır

## İlham Əliyevin müdrik rəhbərliyi ilə xalqımız bu sınaqdan layiqincə çıxacaq

Yeni növ koronavirus infeksiyası dünyanı təhdid etməkdə davam edir. Hələlik tibb elmi virusun yayılmasının qarşısını ala biləcək vaksin hazırlaya bilməyib. Bununla belə, xəstəlikdən zamanında tibbi müdaxilənin edildiyi təqdirdə virusdan sağalmaq mümkündür.

### Əsas vəzifə insanları qorumaqdır

Statistikaya əsasən, indiyədək dünyada koronavirus infeksiyasına yoluxanların sayı 8,1 milyon nəfəri ötüb. Onlardan təxminən 4,2 milyon nəfəri sağalaraq normal həyata qayıda bilib. Bununla belə, bəzi dövlətlərin təcrübəsi göstərir ki, virusdan qorunmanın əsas şərti karantin və izolyasiya rejiminin tətbiqi və vətəndaşların bu qaydalara əməl etməsidir. Bu baxımdan Azərbaycanda virusun yayılmasının qarşısının alınması üçün görülən tədbirlər və ölkə əhalisinin sayına nisbətdə yoluxma sayının az olması, vəziyyətin ümumən nəzarət altında saxlanılması dünyada koronavirusla mübarizədə mütərəqqi nümunələrdən biri kimi qəbul olunur.

Qeyd etmək lazımdır ki, Azərbaycanda virusun daha geniş ayaq aça bilməməsinin əsas səbəbi ölkə rəhbərliyinin ilk gündən məsələyə həssas reaksiyası, həyata keçirilən təxirəsalınmaz qabaqlayıcı tədbirlər olub. Bir sıra ölkələrin bu xəstəliyə ilk vaxtlardan laqeyd münasibət göstərmələrinin sonradan ağır fəsadlara yol açması faktdır. İnkişaf etmiş Avropa ölkələrində yoluxma sayı on minlərlə ölçülür. ABŞ, Braziliya kimi dövlətlərdə daha ciddi fəsadlar yaşanmaqdadır. Azərbaycanda isə vəziyyət nəzarət altındadır. Xatırladaq ki, əhalisinin sayı Azərbaycandan beş dəfə az olan Ermənistanda yoluxanların sayı 17 min nəfəri ötüb. Vəfat edənlərin sayı isə 300 nəfərə yaxındır.

Beləliklə, digər ölkələrlə Azərbaycanı müqayisə etdikdə aydın görünür ki, respublikamızda vəziyyət nəzarət altındadır və həyata keçirilən məqsədyönlü tədbirlər səmərəsini göstərir. Ən əsası, Azərbaycandakı reallıq göstərir ki, dövlət öz vətəndaşlarının sağlamlığını qorumaq kimi missiyasını uğurla həyata keçirir. Bir neçə gün əvvəl modul tipli xəstəxanaların açılışında Prezident İlham Əliyev bu barədə deyib: "Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir. Əlbəttə ki, itkilərimiz də olub, amma bəzi ölkələrlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bu, onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur".

### Azərbaycan xarici yardım gözləyən dövlətlərdən deyil

Azərbaycanla bağlı başqa bir mühüm məqam ondan ibarətdir ki, respublikamız koronavirusla mübarizəni sırf özünün daxili imkanları hesabına həyata keçirir. Məlum olduğu kimi, indiyədək 150-dən çox ölkə maliyyə dəstəyi üçün beynəlxalq maliyyə institutlarına müraciət edib. Çünki onların daxili imkanları təkbaşına xəstəliklə mübarizə aparmağa imkan vermir. Qürurlu haldır ki, Azərbaycan onların arasında deyil.

Əksinə, Azərbaycan pandemiya dövründə Ümumdünya Səhiyyə Təşkilatına və bir sıra dövlətlərə maliyyə yardımı etməklə koronavirusla mübarizədə qlobal səviyyədə öz töhfəsini verdi. Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına iki dəfə ianə etməklə ümumilikdə 29 ölkəyə humanitar yardım göstərib.

Ardı 6-cı səh.

## "Microsoft" şirkəti ilə tərəfdaşlığın böyük potensialı və böyük gələcəyi var

İyunun 16-da "Microsoft" şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və "Microsoft" şirkətinin digər nümayəndələri arasında videokonfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, videokonfransın iştirakçılarını salamlayan **Prezident İlham Əliyev** dedi:

- Sabahınız xeyir.

"Microsoft"un vitse-prezidenti **Filip Roq:** Sabahınız xeyir.

**Prezident İlham Əliyev:** Sizi görmək çox xoşdur.

**Filip Roq:** Mən də həmçinin. Bir neçə il keçib. Sizi sağlam görmək çox gözəldir. Vaxt ayırdığınıza görə təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Mən bizim bir neçə il əvvəl Bakıdakı görüşümüzü xatırlayıram.

**Filip Roq:** Bizim səyahət edə bildiyimiz daha yaxşı vaxtlarda.

**Prezident İlham Əliyev:** Bəli, lakin indi biz özümüzü hazırkı reallığa uyğunlaşdırmalıyıq.

Ardı 2-ci səh.

## Mehriban ƏLİYEVA: "Qoy Vətənimizdə həmişə sülh və əmin-amanlıq hökm sürsün"

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva 15 İyun- Milli Qurtuluş Günü münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım edib.**



AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Əziz həmvətənlər!

Sizi Milli Qurtuluş Günü münasibətilə təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram. Qoy Vətənimizdə həmişə sülh və əmin-amanlıq hökm sürsün! Qoy Azərbaycanın müstəqilliyi, xalqımızın azadlığı əbədi olsun! Hər birinizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram!"

## "Hər kəsdən bu xəstəliyin ciddiliyini və təhlükəsini dərk etməsini xahiş edirəm"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Əməkdar artist Bəhram Bağırzadə ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Bilirəm ki, bir çox soydaşımız bu günlərdə Bəhramın sağalması üçün dua edir. Uca Tanrıdan ona güc və xəstəliyə qalib gəlməsinə yardımçı olmasını diləyirəm.

Həkimlər onu xilas etmək üçün əllərindən gələni əsirgəmirlər. Ümid edirəm və inanıram ki, Bəhram sağalacaq və biz birgə layihələrimiz və ideyalarımız üzərində işimizə davam edəcəyik.

Tanrı xəstəliklə mübarizə aparan hər kəsə kömək olsun. Yaxınlarına və doğmalarına güc və səbir versin. Həkimlərimizə və bütün tibb işçilərimizə minnətdaram və onlara sonsuz təşəkkürümü bildirirəm.

Hər kəsdən bu xəstəliyin ciddiliyini və təhlükəsini dərk etməsini xahiş edirəm. Özünüzü, doğmalarınızı, yaxınlarınızı qoruyun. Uca Allah hamıya cansağlığı nəsib etsin".

## Pandemiyaya qarşı düzgün strategiya

### Virusun ölüm zəncirini qırmaq üçün küçələri kimsəsiz qoyaraq evlərimizə çəkildik...

İki gün idi ki, Bakı yaman səssiz idi. Sanki sakinlər birdəfəlik tərk etmişdi bu şəhəri. Küçələr bomboş, adamsız, səssiz-səmirsiz... Sadəcə, yaşıl ağaclarda yuva quran quşların cəh-cəhi, Xəzərin dalğalarına baş vurub səmaya ucalan qağayıların qaqqıltısı idi bu qulaqbatırıcı sükutu pozan.

İlk dəfə idi ki, Şərqin ulduzu paytaxtımız bu qədər qəribsəmişdi doğma sakinləri üçün. İlk dəfə idi ki, küləklər şəhərinin qaynar, aşıb-daşan küçələri belə boş qalmışdı. 6 aydır ki, dünyaya savaş açan yeni koronavirus - COVID-19 adlı bəla həyatımıza bir çox dəyişikliklər diktə etmişdi və ötən iki gündə də doğma şəhərimizin bu qədər səssizliyə, sükuta bürünməsinə şahidlik etməli olduq...

Amma biz buna öyrəşməmişik və tezliklə Bakı və digər şəhərlərimizin, rayonlarımızın yenidən çal-çağırlı abhavasına dönməsini istəyir, bunu ürəkdən arzulayırıq.

Buna görə də iki gün ərzində evlərimizə çəkilərək bəşəriyyəti acınacaqlı vəziyyətə salan bu bəladan qurtulmaq, virusun nəfəsini kəsmək üçün küçələri kimsəsiz qoyaraq, müvəqqəti olaraq evlərimizə çəkildik...

### Pandemiya davam edir

Nə yazıq ki, Yer üzərində koronavirus təhlükəsi bitməyib və hər an yoluxma və ölüm sayını artırır. Ölkələrdə sərtləşdirilmiş karantin dövründə yoluxmalarda, ölüm sayında müəyyən müsbət irəliləyişlər əldə olunsa da, yumşaldılma ərəfəsində virus yenidən alovlanmağa başlayır, vahiməli bir şəkildə insanların sağlamlığını təhlükə altına alır. Və bəlli edir ki, o, yox olmayıb və ən kiçik fürsətdən istifadə edərək, cilddən-cildə girərək, mutasiya edərək insanlığı təhdid etməkdə davam edir.

Bəli, pandemiya vəziyyəti hələ də davam etdiyindən və COVID-19 infeksiyasının müalicəsi üçün zəruri dərman preparatı, eyni zamanda bu xəstəliyə qarşı peyvənd tapılmadığından hazırda virusla mübarizə gedir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Bürosunun direktoru Hans Henri Kluge xəbərdarlıq edib ki, yeni növ koronavirus infeksiyasının yenidən alovlanması ilə bağlı real təhlükə var: "Koronavirusun yayılmasının qarşısı alınmasa, xəstəlik dağıdıcı ola bilər.

Ardı 6-cı səh.



"Xüsusilə həkimlərin fəaliyyətini, fədakarlığını qiymətləndirmək istərdim...
Onlar aylarla öz ailə üzvlərini görə bilmirlər və çox ağır şəraitdə xüsusi geyimlərdə gecə-gündüz xəstələrin yanındadırlar, onların həyatını xilas edirlər. Bizdə ölüm səviyyəsinin çox aşağı olması, ilk növbədə, həkimlərin peşəkarlığı, fədakarlığı hesabınadır".

**İlham ƏLİYEV**

## Günümüzün fədakarları

Hər il 17 iyun ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı kimi qeyd edilir. Belə bir rəmzi gün Ümummilli Lider Heydər Əliyevin müstəqillik dövründə milli dövlətçiliyimizə bəxş etdiyi əlamətdar tarixlərdəndir.

Ulu Öndər tibb işçilərinin ölkəmizin sosial inkişafındakı xidmətlərini, eləcə də Azərbaycan Xalq Cümhuriyyətinin ilk Səhiyyə Nazirliyinin 1918-ci ilin məhz bu günündə yaradılmasını nəzərə alaraq hər il iyunun 17-nin tibb işçilərinin peşə bayramı kimi qeyd olunması barədə sərəncam imzalamışdır. Ümummilli Liderin əsasını qoyduğu bu dəyərli ənənə 19 ildir ki, sevgi ilə davam etdirilir.

### Səhiyyə mədəniyyəti

Əlbəttə, bu günün məramı təkcə tibb işçilərinin fədakar əməyinin yüksək dəyərləndirilməsindən ibarət deyil. 17 iyun gününün mahiyyəti milli dövlətçilik irsimizin uğurla davam etdirilməsi ilə də məhdudlaşmır. Həmin gün bütün dövrlər üçün daha böyük ictimai əhəmiyyət daşıyır, cəmiyyət üçün sosial faydalar yaradır.

Ardı 7-ci səh.

## Müxalifət fəaliyyətini dövlətə və xalqa fayda vermək müstəvisində qurmalıdır

Azərbaycanda bütün sahələrdə həyata keçirilən islahatlar ölkəmizin yüksəlişinə böyük töhfələr verir. İqtisadi, sosial və digər sahələrlə yanaşı, siyasi islahatların da aparılması cəmiyyətimizdə bu müstəvidə yeni münasibətlərin yaranması ilə müşahidə olunur.

Bu mövzuda Milli Məclisin deputatı, İntizam komissiyasının sədr müavini, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı ilə həmsöhbət olduq.

*- Azərbaycanda siyasi sistemdə yeni konfiqurasiyanın formalaşması son dövrün siyasi reallıqlarından biridir. Artıq ilkin nəticələrini verən bu prosesdən sizin gözləntiləriniz nədən ibarətdir?*

- Prezident İlham Əliyevin 2018-ci il seçkilərindən sonra qarşıya qoyduğu başlıca vəzifələrdən biri bütün sahələrdə islahatların dərinləşdirilməsi idi. Tezliklə bir sıra sahələrdə genişmiqyaslı islahatlara start verildi. Həmin islahatların içərisində Azərbaycanın siyasi həyatında siyasi partiyaların yerinin və rolunun artırılması da qarşıya qoyulan vəzifələrdə biri idi. Çünki Prezidentin təşəbbüsü ilə cəmiyyətin bütün tərəflərini əhatə edən islahatlar zamanı yeni siyasi konfiqurasiyanın yaranması kənarda qala bilməzdi. Bu da təbiidir. Çünki respublikamızın indiki inkişaf səviyyəsi cəmiyyətimizdə və siyasi proseslərdə partiyaların yerinin və rolunun artırılmasını zəruri edir.

Bu ilin fevralında keçirilən altıncı çağırış Milli Məclisə seçkilərdə ölkəmizdə fəaliyyət göstərən bir sıra siyasi partiyaların nümayəndələrinin parlamentə mandat əldə etməsindən sonra əslində nəzəri cəhətdən bizim gözləntilərimiz özünü doğrultmağa başladı.

Bununla paralel olaraq cənab İlham Əliyev Prezident Administrasiyasında struktur islahatları apararkən Siyasi partiyalarla iş aparan xüsusi şöbənin yaradılmasını zəruri bildi. Artıq bu şöbə öz fəaliyyətini kifayət qədər yüksək səviyyədə həyata keçirir.

Ardı 5-ci səh.

# "Microsoft" şirkəti ilə tərəfdaşlığın böyük potensialı və böyük gələcəyi var



Əvvəli 1-ci səh.

**Filip Roq:** Tamamilə doğrudur. Yaradılmış imkana görə Sizə təşəkkür edirik. Məni bir neçə həmkarım müşayiət edir. Bizim tərəfdən regional rəhbər xanım Den Ouden, hökumətlə əlaqələr üzrə təmsilçimiz xanım Vildfanq və əlbəttə ki, Azərbaycan üzrə baş menecer Qaçay. Sözsüz ki, bayaq qeyd etdiyim kimi, orada, Sizin gözəl şəhərinizdə şəxsən olmaq istərdim. Siz bütün dünyadakı vəziyyəti başa düşürsünüz. Biz Sizə salamlarımızı çatdırırıq. Mənə gəlincə, öz vətənimdən - Almaniyadan. Sizinlə görüşmək imkanı əldə etmək bizim üçün böyük fürsətdir. Bu mürəkkəb zamanda vaxt ayırdığınız üçün təşəkkür edirik. İlk növbədə, deyərdim ki, ölkənizdə pandemiyanın təsirinin kifayət qədər nəzarət altında olduğunu eşitdiyimə şad oldum. Mən dünya liderləri ilə əlaqə saxladığımdan bu, heç də həmişə belə olmur. Nəhayət bilirsiniz ki, texnologiya və gördüyümüz bütün işlərdən başqa insan sağlamlığı və insan həyatı bizim üçün prioritet təşkil edir. Hər kəsin sağlamlığının qorunması üçün gördüyünüz işlərə görə Sizi və hökumətinizi təbrik edirik. Lakin pandemiya heç də fərq qoymur. Ona görə də biz ehtiyatlı olmalıyıq. İkincisi, bu gün əlaqə saxlamaq imkanına görə Sizə bir daha təşəkkür edirik. Mən deyərdim ki, bizim texnologiyanın bu qeyri-adi zamanda harada ən səmərəli şəkildə istifadə oluna biləcəyini müəyyən etmək üçün son bir neçə ayda bir çox dünya liderləri ilə ünsiyyət saxlamaq imkanımız olub. Bununla bağlı Sizinlə bir qədər söhbət etmək imkanına malik olmaq istərdim.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm, çox sağ olun. Bu yeni reallıqda sizi yenidən görməyə çox şadam. Sizin bu videokonfransı təşkil etmək təşəbbüsünüzü qiymətləndirirəm. Çünki həyat davam edir. Baxmayaraq, əlbəttə ki, bu pandemiya bizim ənənəvi həyat tərzimizə ciddi şəkildə müdaxilə edir, bununla belə, biz özümüzü reallığa uyğunlaşdırmalıyıq. Bizim pandemiyanın öhdəsindən gəlməklə bağlı səylərimiz barədə sözlərinizə görə sizə təşəkkür edirəm. Həqiqətən də Azərbaycan bu mühüm məsələnin həllində Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən nümunə adlandırılıb. Vəziyyət nəzarət altındadır. Eyni zamanda, biz nəinki təkcə daxili məsələlərə diqqət yetiririk, həmçinin qlobal miqyasda da fəaliyyət göstəririk. Azərbaycan artıq 29 ölkəyə humanitar yardım göstərib və bu proses davam edir. Biz özümüzü beynəlxalq ictimaiyyətin etibarlı üzvü kimi nümayiş etdiririk.

Beləliklə, fəaliyyətimiz və gələcək planlarımıza gəlincə, əlbəttə ki, əsas diqqəti insanların koronavirusdan qorunmasına yönəltdik və bunun bizim iqtisadi artımımıza çox mənfi təsir göstərəcəyini aydın şəkildə başa düşürük. Bizim bu il üçün çox böyük perspektivlərimiz var idi və ilin birinci rübü çox ümidverici idi. Lakin indi beş ayın nəticələri ümumi daxili məhsulda kiçik azalmanın - təxminən 1,7 faiz azalmanın olduğunu göstərir. Lakin eyni zamanda iqtisadiyyatın bəzi sektorlarında, xüsusilə neft və qazla əlaqəli olmayan sektorlarda artım qeydə alınıb. Bu səbəbdən bu gün biz məhdudiyyət tədbirlərini uzlaşdırırıq, çünki COVID-19 hələ də mövcuddur. Eyni zamanda, biz ölkəmizi açmağa və həyatımızın müxtəlif sahələrinin fəaliyyətini bərpa etməyə başlayırıq. Beləliklə, ümidvaram ki, bu balanslaşdırılmış yanaşma bizə, ilk növbədə pandemiyaya qarşı uğurlu mübarizəni davam etdirməyə kömək edəcək. Eyni zamanda biz özəl sektora, xüsusilə pandemiyadan əziyyət çəkən sahələrə, turizm və onunla əlaqəli sahələrin bərpasına yardım edəcəyik.

İki il bundan əvvəl Bakıda keçirdiyimiz görüşdən sonra əməkdaşlığımıza gəlincə, bildiyiniz kimi, biz razılaşma imzalamışdıq. Görüşümüzdən əvvəl mənə məlumat verildi ki, on minlərlə lisenziya verilib və bu məsələ hazırda uğurla davam etdirilir. Bizim piratçılığa qarşı birgə səylərimiz yaxşı nəticələr verir. Gələcək planlarımıza gəlincə, bəlkə də bilirsiniz ki, hazırda biz rəqəmsal transformasiya üzrə hökumət strategiyası üzərində işləyirik. Ümidvarıq ki, bu məsələdə "Microsoft"la yaxşı əməkdaşlıq edə biləcəyik. Bu proqram növbəti 5 il üçün planlaşdırılır. Eyni zamanda süni intellekt üzrə strategiyanın ətraflı işlənib hazırlanması ilə bağlı məsələlər də bizim gündəliyimizdədir. Kibertəhlükəsizlik hər zaman gündəlikdədir, çünki bu, bütün ölkələrin hazırlıqlı olmalı olduğu məsələdir. İndiyədək bizdə belə böyük hallar olmayıb, lakin heç kim sığortalanmayıb. Ona görə də bu da bizim gələcəyimiz üçün prioritetlər sırasında qalır. Əlbəttə, mən icra olunmuş layihələrin siyahısına baxdım. Aramızdakı əməkdaşlıq çox təsirləndiricidir və əminəm ki, bu, qarşıdakı illərdə tərəfdaşlığımızı gücləndirəcək. Həmçinin pandemiya ilə əlaqədar bu vəziyyət bizi məcbur edir ki, təhsil, distant təhsil məsələlərinə yeni bucaqdan baxaq. Baxmayaraq ki, mövcud vəziyyətə özümüzü uyğunlaşdırmaq üçün bizim çox vaxtımız olmadı, lakin müəyyən addımlar atılmışdır. Çünki bizim məktəb və universitetlərimiz mart ayından bəri bağlanıb. Biz sentyabrın 15-dən başlayacaq yeni tədris ilinə hazırlaşmalıyıq. Həmin zaman pandemiya ilə bağlı vəziyyətin necə olacağını bilmirik, məktəb və universitetləri aça biləcəyimizi bilmirik, ona görə də biz ən pis ssenariyə hazırlıqlı olmalıyıq. Əgər problem davam edirsə və getdikcə pisləşirsə, o zaman biz bu barədə düşünməli olacağıq. Lakin indi bu barədə düşünmək lazımdır. Həmçinin distant işlə bağlı məsələlər... Bu da ölkə üçün olduqca vacibdir. Təxminən bunlar bizim planlarımızda diqqətimizi cəmlədiyimiz sahələrdir.

**Filip Roq:** Təşəkkür edirəm. Düşünürəm ki, bu, bizim əməkdaşlıq etdiyimiz əksər dünya ölkələrinin üzləşdiyi təcrübəyə və hazırkı mövqeyimizə uyğun gəlir. Təhsil mövzusuna gəlincə, zənnimcə, bu, güman ki, bizim əsas nailiyyətlərimizdən biri idi. O mənada ki, biz Sizin təxminən 1 milyon tələbəniz üçün əlaqə qura bilmişik. Düşünürəm ki, o vaxta kimi onların gələcəyinə heç nəyin mane olmamasını təmin etmişik və xoşbəxtlikdən biz evdəyik. Aydındır ki, bu, gələcək üçün vacib investisiyadır. Komandalarımız və tərəfdaşlarımızın mümkün qədər tez müddətdə, bir neçə həftə ərzində hər kəsi əlaqələndirmək üçün sizin nazirlikdəki təhsil işçiləri ilə apardığı işdən qürur duyuram.

Digər ölkələrdə üzləşdiyimiz problem ondan ibarətdir ki, evlərdəki qurğuların sayı məhduddur. Anlayıram ki, bu, sizdə problem deyil. Bu isə yaxşı xəbərdir. Çox ölkələr, əslində, yetəri qədər qurğular əldə etmək üçün çətinlik yaşayıblar. Ana, ata və uşaqlar evdədirlər və kompüterdən istifadə uğrunda mübarizə aparılır. Lakin görünür, sizdə bu problem yoxdur və bu, yaxşı xəbərdir.

Filip Roq "Microsoft"un evdən işləmə təcrübəsi barədə məlumat verərək bildirdi ki, təmsil etdiyi şirkət bir çox ölkələrdə bu cür həll yollarının tətbiqini həyata keçirib və tələb olunan zaman insanların infrastruktura təhlükəsiz çıxışını təmin etmək üçün virtual iş masalarının yaradılması ilə çıxış edib. Kibertəhlükəsizlik məsələsinə toxunan Filip Roq qeyd etdi ki, pandemiya dövründə kiberhücumların sayı artıb. "Microsoft"un vitse-prezidenti bu cür hücumların qarşısının alınması istiqamətində şirkətin gördüyü işlərdən danışdı. Filip Roq "bulud hesablamaları" barədə də danışdı, onun səmərəsi və əhəmiyyəti haqqında məlumat verdi. Vurğuladı ki, bu texnologiya artıq bir çox ölkələrdə istifadə olunur. Filip Roq məmnunluqla bildirdi ki, "Microsoft" şirkətinin süni intellekt platforması Azərbaycan dilini də tezliklə dərk edəcək. O qeyd etdi ki, bu gözəl xəbəri çatdırmaqdan məmnunluq hissi keçirir. Vurğuladı ki, Azərbaycan dilində tərcümə xidmətinin istifadəyə verilməsini səbirsizliklə gözləyir.

Bunun iqtisadiyyatın qloballaşmasında, onlayn və oflayn iqtisadiyyatın aparılmasında, turizmin inkişafında rolunu vurğulayan "Microsoft" şirkətinin vitse-prezidenti Filip Roq dedi:

- Bu texnologiya həmçinin qlobal bazara daxil olmaq üçündür. Çünki "bulud hesablamaları" elə bir qlobal bazar ərazisidir ki, buraya hər kəsin çıxışı var. Səmərəli olaraq Azərbaycandan ən yaxşı istedadlı insanlar qlobal bazarda rəqabət apara bilərlər, onların həqiqi "bulud hesablamaları" üzrə iqtisadi gücə malik olması üçün San Fransiskodan, Silikon Vadisindən fəaliyyət göstərməsinə lüzum yoxdur. Hesab edirəm ki, əsaslı dəyişikliyin arxasında iqtisadi imkanlar durur. Mənim təklifim bu məsələləri düşünmək, bizim birlikdə insanların rəqəmsal bacarıqları üzrə proqramları, startapları, istər geniş mənada, istərsə də startap mənasında necə irəli aparmağımızı nəzərdən keçirməkdən ibarətdir. Hesab edirəm ki, çoxlu imkanlar mövcuddur.

Sonra Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə çıxış edərək dedi:

- Cənab Prezident, hörmətli həmkarlar, biz "Microsoft"la bütün sahələrdə, xüsusilə açıq açar infrastrukturu ilə mübarizə, kibertəhlükəsizlik, informasiya texnologiyalarının təhsildə tətbiqi və internet əşyalar texnologiyası və kadrların təlimi kimi sahələrdə sıx əməkdaşlıq edirik. Sizin göstərişinizə müvafiq olaraq, cənab Prezident, biz hökumət agentlikləri üçün lisenziyalı proqram təminatını almaq məqsədilə 2018-ci ildə müqavilə imzaladıq. Biz şirkətin Azərbaycandakı nümayəndəliyi ilə görüşlər keçirdik, yeni təklifi və yeni layihələrin inkişafını müzakirə etdik. Diqqətiniz üçün təşəkkür edirəm.

Daha sonra çıxış edən Prezidentin köməkçisi Şahmar Mövsümov dedi:

- Çox sağ olun, cənab Prezident. Hesab edirəm ki, "Microsoft" şirkəti ilə çox yaxşı əməkdaşlıq qurmuşuq. Hazırda biz innovativ yanaşmalar əsasında iqtisadi inkişafa nail olmaq üçün Azərbaycanın innovasiya strategiyası üzərində işləyirik. Biz bu məsələdə də "Microsoft" şirkəti ilə əməkdaşlıq edirik. Biz "Microsoft" şirkətini daha da fəal olmağa çağırırıq. Hesab edirik ki, Azərbaycanın regionumuzda innovasiyaların mərkəzi olmaq üçün Silikon Vadisi kimi Abşeron Vadisini yaratmaq məqsədilə böyük potensialı var. Bu məsələdə biz "Microsoft" şirkətinin fəal iştirakını yüksək qiymətləndiririk. Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Həmçinin onu qeyd etmək istəyirəm ki, Azərbaycan artıq sənaye inqilabı üzrə regional mərkəzə çevrilir. Bu dəfə Davos İqtisadi Forumu zamanı cənab Borge Brende və mən Davosun Dördüncü Sənaye İnqilabı üzrə Regional Mərkəzinin Bakıda yaradılması ilə bağlı sənədi imzaladıq. Beləliklə, bu mərkəz nəinki təkcə Azərbaycanı, region ölkələrini də əhatə edəcək. Buna görə düşünürəm ki, bizim üçün daha da irəliləmək və sizinlə innovasiya mərkəzi üzərində çalışmaq təbii olardı. Bizim əsas strategiyamız sizin də bildiyiniz kimi, karbohidrogen ehtiyatlarından asılılığı azaltmaq və innovasiyalar, yeni texnologiyalar və müasir idarəçilik əsasında dayanıqlı inkişafa nail olmaqdır. Buna görə düşünürəm ki, bu məsələ üzərində birgə çalışmağımız əməkdaşlığımızı gücləndirə bilər.

"Microsoft" şirkətinin Mərkəzi və Şərqi Avropa üzrə "Multicountry" klasterinin baş meneceri Anke den Ouden Azərbaycanın müvafiq nazirlikləri ilə əməkdaşlıqdan danışdı, təmsil etdiyi şirkət tərəfindən hazırlanan innovasiyalar barədə məlumat verdi.

"Teams" proqramının təhsil işçiləri, eyni zamanda, müəllimlər üçün çox faydalı olduğunu vurğulayan **Anke den Ouden** dedi:

- Biz nəinki Azərbaycan dilinin dəstəklənməsinə sadiqik, eyni zamanda, "Teams" proqramının məlumatlarının dəstəklənməsini də öz öhdəliyimiz kimi görürük. Siz təhsil sahəsində ən innovativ ölkələrdən birisiniz. Biz bu işi davam etdirmək istərdik. Arxa fonda Azərbaycan məkanları, gözəl landşaft, şəhər mənzərələri var. Yaxşı şəkil çəkmək olardı.

"Microsoft Azərbaycan" şirkətinin baş meneceri Qaçay Mirzəyev ölkəmizdə şirkət tərəfindən həyata keçirilən işlərə toxundu. Vurğuladı ki, "Microsoft Azərbaycan" şirkəti öhdəlikləri milli strategiyaya uyğun həyata keçirir.

**Filip Roq:** Təşəkkür edirəm, cənab Prezident, vaxt ayırdığınıza və dəstəyinizə görə minnətdaram. Bu, bizim üçün imkandır. Biz hamımız gələcək imkanları səbirsizliklə gözləyirik və işi davam etdirmək əzmində olan komanda kimi bilirik ki, çoxlu imkanlar var. Hər şeydən əvvəl biz Bakıya qayıtmağı həqiqətən də səbirsizliklə gözləyirik. Mən, həmçinin ötən həftə təəssüf ki, "Formula-1" Qran-Prisinin başa düşülən səbəblərdən baş tutmayacağını oxuyanda kədərləndim. Ən azı sizdə virtual Qran-Pri oldu və mən onu gördüm. Sizə səhiyyə sahəsində, iqtisadi sahədə uğurlar arzulayıram, investisiya yatırılmasının davam etdirilməsində və sabahın transformasiyası üçün yol xəritəsinin yaradılmasında yardımımıza arxalanın. Biz Sizin sərəncamınızdayıq və bizim imkanlardan məqsədəuyğun saydığınız kimi istifadə edin. Biz Sizin üçün buradayıq.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Bu videobağlantıya görə təşəkkür edirəm. Bu, 2018-ci ildə Bakıda keçirilmiş görüşümüzdən sonra görülmüş işlərə nəzər salmaq və gələcək addımları planlaşdırmaq üçün yaxşı imkandır. Düşünürəm, artıq 15 ildən çoxdur ki, "Microsoft" Azərbaycanda fəaliyyətə başlayandan bu yana davam edən tərəfdaşlığın böyük potensialı və böyük gələcəyi var. Biz qarşıdakı uzun illərdə tərəfdaş olacağıq. Bir daha təşəkkür edirəm. Sizi görməyə məmnun oldum. Sizə uğurlar arzulayıram. Pandemiyadan sonra sizi Bakıda görməyə ümid edirəm.

**Filip Roq:** Mütləq. Şəxsən təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

## Salyan rayonunun Yuxarı Noxudlu-Aşağı Noxudlu-Xurşud-Aşağı Kürkəndi avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Altı min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Yuxarı Noxudlu - Aşağı Noxudlu - Xurşud - Aşağı Kürkəndi avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 5,6 milyon (beş milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyun 2020-ci il*

## Azərbaycan Respublikasının səhiyyə işçilərinə fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan səhiyyəsinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar həkim"**

Abbasova Nəzakət Salah qızı
Abdullayev İlyas İdris oğlu
Bayramov Əli Əliəsgər oğlu
Əsədov Çingiz Daşdəmir oğlu
Həsənov Kamil Asif oğlu
İsayev Firqət Məhərrəm oğlu
İsmayılov İlqar Kamal oğlu
İsmayılova Ofelya Ələddin qızı
Qəhrəmanova Səmrat Məmməd qızı
Quliyev Ağayar Əlövsət oğlu
Nəsirov Şahlar Yəhya oğlu
Nəzərov Cəlil Oruc oğlu
Nəzərov Fuad Cabbar oğlu
Səfərov Ayaz Həsənbəy oğlu
Səfərov Ələddin İbrahim oğlu
Tağıyev Ələkbər Soltan oğlu
Tağıyeva Ziyafət Teymur qızı
Yunusov Məhəmmədemin Baba oğlu

**"Əməkdar tibb işçisi"**

Məmmədova Cəmilə Həsən qızı
Orucova Həvva Abbasqulu qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyun 2020-ci il*

## Azərbaycan Respublikasının səhiyyə işçilərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər **"Tərəqqi" medalı** ilə təltif edilsinlər:

Abdullayev Eldar Həmzəli oğlu
Ələkbərov Könül Fidayıl oğlu
Əliyev Maarif Murad oğlu
Əliyev Yusif Qəmət oğlu
Əliyeva Nərgiz Rafiq qızı
Hacıyev Eldar Şabulla oğlu
Həsənov Nəcəf İsa oğlu
İbrahimli Adil İsfəndiyar oğlu
İldırımzadə Nazim Əli oğlu
İsayeva Mehriban Musa qızı
Qarayeva Sürəyya Nəsirulla qızı
Quliyev Zabit Yəhya oğlu
Məmmədov Eldar Əbülfəz oğlu
Muştakov Şirin Ağaşirin oğlu
Sərvərov Əliyar Ənvər oğlu
Vəlizadə Cəbrayıl Mamay oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyun 2020-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Ölkənizə və xalqınıza sülh, həmrəylik və firavanlıq arzulayıram.

Azərbaycan İsrailin mühüm və yaxın tərəfdaşıdır. Ölkələrimiz biznes, innovasiya, elm, təhsil, təhlükəsizlik, turizm, mədəniyyət və bir çox digər sahələrdə dinamik əməkdaşlıq edirlər. Azərbaycan və yəhudi xalqları arasındakı qardaşlıq münasibətləri, eləcə də dini tolerantlığın təbliği, nifrətin və antisemitizmin bütün təzahürlərinin pislənməsi istiqamətində xalqlarımızın birgə səyləri tərəfdaşlığımızın əsasını təşkil edir.

Koronavirus pandemiyasının yaratdığı fəsadları aradan qaldırmağa çalışdığımız dönəmdə İsrail bu amansız xəstəliyin müalicəsi və ona qarşı mübarizə yollarının tapılması istiqamətində Azərbaycanla birgə əməkdaşlığa sadiqdir. Sizə və Azərbaycan xalqına cansağlığı diləyirəm.

Gələn il Azərbaycan və İsrail diplomatik münasibətlərin yaradılmasının 30 illiyini qeyd edəcəklər. Cənab Prezident, fürsətdən istifadə edib münasibətlərimizdəki bu əlamətdar hadisəni qeyd etmək üçün Sizi İsrail Dövlətinə tarixi səfərə dəvət edirəm. Eyni zamanda, Azərbaycan Respublikasının yaxın gələcəkdə İsraildə səfirliyinin açılmasına səmimi-qəlbdən ümid edirəm. Hər iki ölkədə diplomatik nümayəndəliklərin olması münasibətlərimizin möhkəmlənməsi və dərinləşməsi istiqamətində daha böyük addımlar atmağa təkan verəcək və bu da xalqlarımıza böyük fayda gətirəcək.

Zati-aliləri, ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Reuven RİVLİN,***
***İsrail Dövlətinin Prezidenti***

## Prezidentin köməkçisi Hikmət Hacıyev Azərbaycan-Rusiya dövlət sərhədinin Dağıstan istiqamətində baş vermiş hadisəyə münasibət bildirib



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Rusiya-Azərbaycan sərhədində baş vermiş hadisə ilə bağlı AZƏRTAC-ın sualını cavablandırıb.

Hikmət Hacıyev deyib: "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədinin Dağıstan istiqamətində Məhərrəmkənd rayonu, Kullar postunda baş vermiş hadisə ilə bağlı təəssüfümüzü bildiririk. Ümumiyyətlə, COVID-19 qlobal pandemiyası səbəbindən 2020-ci ilin mart ayının ortalarından etibarən ölkəmizin quru sərhədləri və xüsusi çarter reysləri vasitəsilə 20 min nəfərdən artıq Azərbaycan Respublikası vətəndaşının ölkəmizə geri qayıdışı təmin edilib.

2020-ci ilin mart ayının sonu, aprel ayının əvvəlindən etibarən Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında "Samur" sərhəd buraxılış məntəqəsi və beynəlxalq hava limanları vasitəsilə 2976 nəfər Azərbaycan Respublikası vətəndaşının Rusiyadan ölkəmizə geri qayıdışı təmin olunub.

Rusiya Federasiyası ərazisində olan Azərbaycan Respublikası vətəndaşlarının ölkəmizdəki xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq xüsusi vaxt qrafiki çərçivəsində və qeydiyyat əsasında ölkəmizə geri qayıdışının təmin edilməsi üçün "Evə gedirəm" adlı portal yaradılıb.

Azərbaycan Respublikası və Rusiya Federasiyasının aidiyyəti dövlət qurumları tərəfindən qarşılıqlı əlaqələndirmə şəklində vətəndaşların həftəlik əsasda müəyyən olunmuş qrafik çərçivəsində ölkəmizə geri qayıdışı təmin olunur. Həftəlik qrafik çərçivəsində 19 mayda 120 nəfər, 26 mayda 131 nəfər, 2 iyunda 122 nəfər, 9 iyunda 130 nəfər vətəndaş "Samur" sərhəd buraxılış məntəqəsindən ölkəmizin ərazisinə keçib. Bu qrafik üzrə bu gün 150 nəfərdən artıq vətəndaşın ölkəyə keçməsi təmin olunacaq. Həmçinin bu həftə "Evə gedirəm" portalı vasitəsilə qeydiyyata düşmüş vətəndaşların Bakı-Moskva-Bakı çarter reysi ilə geri qaytarılması da nəzərdə tutulub.

Vətəndaşların ölkəyə geri dönməsi zamanı, ilk növbədə, üstünlük yaşlılara, xəstələrə, qadınlara və uşaqlara, ailələrə verilir və Azərbaycanda karantin üçün ayrılmış məntəqələrin qəbuletmə imkanları nəzərə alınır.

"Samur" sərhəd keçid məntəqəsi ətrafına toplaşan vətəndaşlarımız müəyyən edilmiş qaydalara riayət etməli, növbəlilik prinsiplərini pozmamalı və aidiyyəti dövlət qurumlarının öz fəaliyyətlərini həyata keçirmələrinə mane olmamalıdırlar. Mövcud durumda vətəndaşlarımızı anlayış göstərməyə çağırırıq".

## Maqomedali Maqomedov yüksək mükafata görə Prezident İlham Əliyevə təşəkkür edib

Rusiya Federasiyasının Əmək Qəhrəmanı, Dağıstan Respublikası Dövlət Şurasının Fəxri sədri Maqomedali Maqomedov yüksək mükafat - "Dostluq" ordeni ilə təltif edildiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib.

AZƏRTAC "RİA Dağıstan" informasiya agentliyinə istinadən Maqomedali Maqomedovun məktubunu təqdim edir. Məktubda deyilir:

"Hörmətli İlham Heydər oğlu.

Məni şərəfləndirdiyinizə - Azərbaycan Respublikasının yüksək dövlət mükafatı olan "Dostluq" ordeni ilə təltif etdiyinizə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm.

Mən bütün ictimai-siyasi fəaliyyətim dövründə Dağıstan və Azərbaycan xalqları, Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında ənənəvi qardaşlığın və dostluğun möhkəmləndirilməsi üçün var qüvvəmlə çalışmışam.

Mənə Sizin dahi atanız, yeni Azərbaycanın banisi və Ümummilli Lideri Heydər Əliyevlə işləmək və dostluq etmək xoşbəxtliyi nəsib olub.

Siz onun işlərini layiqincə və uğurla davam etdirirsiniz. Əməksevər Azərbaycan xalqı Sizin rəhbərliyinizlə ölkənin sosial-iqtisadi və siyasi inkişafında böyük uğurlar qazanıb.

Siz Rusiya Federasiyası ilə dostluğun möhkəmləndirilməsinə yönəlmiş siyasətiniz və fəaliyyətiniz ilə öz xalqınızın, dağıstanlıların və rusiyalıların nəzərində böyük nüfuz qazanmısınız.

Hörmətli İlham Heydər oğlu, Sizə və Azərbaycan xalqına daha böyük müvəffəqiyyətlər arzu edirəm".

## Azərbaycanda koronavirusa daha 338 nəfər yoluxub, 209 nəfər sağalıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 338 yoluxma faktı qeydə alınıb, 209 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 10 min 662 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 5948 nəfər müalicə olunaraq sağalıb, 126 nəfər vəfat edib. Aktiv xəstə sayı 4588 nəfərdir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 391 min 699 test aparılıb.

## Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

# “Azərbaycan xalqı Sizin bütün qərarlarınızla həmrəydir”

Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq məktubları gəlməkdə davam edir. Respublikamızın bütün guşələrindən, eləcə də xaricdən həmvətənlərimiz dövlət başçısının diqqət və qayğısından razılıqlarını ifadə edirlər.

AZƏRTAC Prezidentin saytına istinadla minnətdarlıq məktublarının bir qismini təqdim edir.

Bolqarıstanın Sviştov şəhərindən tələbə **Elvin Cəmill** yazır: “Möhtərəm cənab Prezident, mən Bolqarıstan Respublikasının Sviştov şəhərində D.A.Tsenov adına Dövlət İqtisadiyyat Akademiyasının maliyyə bölməsi üzrə təhsil alan tələbəsiyəm. Dünyanı çənginə almış koronavirusun (COVID-19) yayılması, sərhədlərin bağlanması səbəbindən və hazırda yaşadığım şəhərdə yeganə azərbaycanlı olduğumdan bəzi maddi-mənəvi problemlərlə üzləşmək məcburiyyətində qaldım. Ancaq hörmətli cənab Prezident, Sizin bu çətin zamanda bizimlə bağlı verdiyiniz göstəriş və tapşırıqlar həyatda öz əksini tapdı. Azərbaycan Respublikasının Bolqarıstandakı səfirliyi məni və mənim kimi tələbələri yalnız qoymadı, dəstəyini bizdən əsirgəmədi. Hər bir xalqın, millətin fiziki cəhətdən müdafiəsi, onun genefondunun qorunması iqtisadi, sosial, mədəni və digər məsələlərdən daha vacibdir. Siz xalqımızın sağlamlığını qorumaqla təkcə bu gün deyil, gələcək əsrlər üçün də dövlətimizin, millətimizin mövcudluğunu təmin etdiniz. Sizə bir daha dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Millətimiz, dövlətimiz naminə fəaliyyətinizdə Sizə cansağlığı, uğurlar arzu edirəm”.

Bolqarıstanın Dobriç şəhərində təhsil alan tələbə **Elvin Babayev:** “Hörmətli cənab Prezident, mən Bolqarıstan Respublikasının Dobriç şəhərində təhsil alan azərbaycanlı tələbələrdən biriyəm. Bu məktubu yazmaqda məqsədim Sizə öz minnətdarlığımı bildirməkdir. Biz tələbələrə bu çətin vəziyyətdə yardım etdiyinizə görə Sizə çox təşəkkür edirəm. Burada bizə belə qayğı ilə yanaşılması bizi çox sevindirir. Ən azından xarici ölkədə olmağımıza baxmayaraq, özümüzü tək hiss etmirik. Bütün bunlar çox sevindirici haldır. Sizə hər işinizdə uğurlar arzulayıram. Allah razı olsun!”

Polşanın Krakov şəhərindən tələbə **Aygül Məmmədova:** “Hörmətli Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva, mən, Aygül Fərman qızı Məmmədova Polşanın Krakov şəhərində yaşayan və təhsil alan tələbə kimi ölkə daxilində və xaricdə gördüyünüz işləri sosial şəbəkələrdə, informasiya portallarında izlədiyimi xüsusi qeyd etmək istəyirəm. COVID-19 virusunun dünyada yüzlərlə ölkəni iflic vəziyyətinə salmasına baxmayaraq, Azərbaycan Respublikasının Prezidenti və Birinci vitse-prezidenti tərəfindən verilən güclü, operativ qərarlara əsaslanaraq deyə bilərəm ki, vətəndaşlarımız bu cür qərarlar qəbul edən dövlət başçısı ilə fərəhlənə bilərlər. Siz ölkədən, ailədən kənarda olan tələbələrin qayğısını da nəzərdən qaçırmamısınız. Biz göstərdiyiniz qayğı nəticəsində yardım aldıq. Hətta həm tələbələr, həm də işləyənlər üçün Polşadan Azərbaycana iki dəfə çarter reysi təşkil edildi. Əminəm ki, qısa zamanda iqtisadiyyatımızın bir çox Avropa ölkələrini arxada qoymasına, innovativ ideyalar qaynağı olan insan kapitalımızın artmasına yönəlmiş güclü qərarlar və strategiya hələ irəlidədir.

Bir daha Sizə öz adımdan dərin təşəkkür edirəm. Ümid edirəm ki, yaxın gələcəkdə bir gənc azərbaycanlı kimi mənim uğurlu addımlarımdan Siz də fərəhlənəcəksiniz”.

Krakov şəhərində təhsil alan daha bir tələbəmiz **Hikmət Həbibzadə:** “Cənab Prezident, koronovirus pandemiyasının dünyada geniş yayıldığı bir vaxtda Siz xaricdə təhsil alan tələbələrimizi də daim diqqətdə saxlayır, belə çətin vəziyyətdə onlara həm mənəvi, həm də maddi dəstək göstərirsiniz. Hər zaman xalqın yanında olmağınız və həyata keçirdiyiniz sosial siyasətiniz bu reallığı tam əks etdirir. Lider ən kritik vaxtlarda öz vətəndaşının yanında, vətəndaş isə öz dövlətinin liderinin yanındadır. Cənab Prezident, Sizin “Biz birlikdə güclüyük!” çağırışınız uzun illər ölkəmizin zəfər simfoniyası olacaq. Biz həmişə Sizinləyik! Möhtərəm cənab Prezident, mən bir tələbə kimi Sizin və Mehriban xanımın bu xidmətlərini yüksək qiymətləndirirəm. Bütün bu diqqət, qayğı və dəstəyə görə bir daha Sizə dərin minnətdarlığımı bildirirəm”.

Polşa Respublikasından **Vasif Qurbanovun** məktubunda deyilir: “Cənab Prezident, pandemiya zamanı bizə göstərilmiş diqqətə görə Sizə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürümü bildirirəm. Bu çətin dönəmdə xaricdə yaşayan bir Azərbaycan vətəndaşı olaraq bu diqqəti görmək qürurvericidir”.

Bakının Yasamal rayonunun sakini, Milli Qəhrəman **Fəxrəddin Cəbrayılov:** “Hörmətli cənab Prezident, ailəm üçün etdiklərinizə görə Sizə sonsuz ehtiramımı və minnətdarlığımı bildirirəm. Həyatımın ən çətin anında - ağır xəstəlikdən əziyyət çəkən həyat yoldaşımla bağlı ümidlərimin tükəndiyi bir vaxtda Siz kömək əlinizi uzatdınız, müraciətimə həssaslıqla yanaşaraq lazımi göstəriş verdiniz. Heydər Əliyev Fondunun xətti ilə həyat yoldaşımın Türkiyədə müalicəsi üçün bütün işlər görüldü, ailəmizə böyük sevinc bəxş edildi. Sizə dərin təşəkkürümü bildirirəm, cənab Prezident. Siz və ailəniz həmişə sağlam və xoşbəxt olasınız. Mən bu qayğınızı heç zaman unutmayacağam. Mən həmişə Sizin əsgəriniz olmuşam, bu gün də hər bir əmrinizin icrasına hazıram. Allah Sizi qorusun!”

Rusiyanın Nijni Novqorod şəhərindən **Zöhrab Mehdizadə** yazır: “Hörmətli cənab Prezident, Sizin məsuliyyətli vəzifənizdə gərgin iş qrafikinizi izlədikcə qürur hissi keçirir, fəaliyyətinizlə bağlı heyranlığımı bildirmək istəyirəm. Mən Rusiyada yaşasam da, hər gün mətbuatda Azərbaycanla bağlı məlumatları izləyir, dövlətimizi və cəmiyyətimizi maraqlandıran məsələlərlə tanış oluram. Sizin xarici siyasətinizi dəstəkləyirəm və Sizi bu sahədə kamil siyasi xadim kimi tanıyıram. Son vaxtlar ölkə daxilindəki həyata keçirilən islahatlar, qətiyyətli mövqeyiniz isə məni valeh edir. Gördüyünüz işlər Azərbaycanın inkişafına xidmət edir. Bütün bunlar əminlik yaradır ki, doğma Vətənim bütün çətinliklərin öhdəsindən gələcək, Azərbaycan gəncləri daim Sizdən nümunə götürəcək, ölkənin maraqlarını hər şeydən üstün tutacaqlar. Mən də sosial şəbəkələrdə Azərbaycanla bağlı düzgün təsəvvürü olmayan insanlara obyektiv məlumat çatdırmaqla ölkəmə xidmət etməyə çalışıram. Cənab Prezident, Tanrı Sizi və ailənizi qorusun! Sizə səmimi hisslərimi və ən xoş arzularımı çatdırıram”.

Mingəçevir şəhərindən **Ramis Əhmədov:** “Möhtərəm cənab Prezident, Sizin tövsiyələrinizə uyğun olaraq, Azərbaycan İES-də əsaslı yenidənqurma işləri aparılır. Eyni zamanda onun ətrafında abadlıq-quruculuq işləri həyata keçirilir. Bütün bunlar gündən-günə inkişaf edən respublikamızın çiçəklənməsinə verilən töhfədir. Görülən bu işlər biz ağsaqqalları da sevindirir. Cənab Prezident, Mingəçevir şəhərinin ağsaqqalları adından Sizə minnətdarlığımı bildirirəm. Tanrı Sizi qorusun!”

Ağcabədi rayonunun Salmanbəyli kəndindən **Əli Bədəlov:** “Cənab Prezident, həmişə olduğu kimi, Sizin iyunun 3-də Ağcabədiyə səfəriniz də biz sakinlərə böyük sevinc və fərəh hissi bəxş etdi. Biz - qarabağlılar xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi Sizi ürəkdən sevir və Sizinlə qürur duyuruq. Rayonumuzun davamlı sosial iqtisadi inkişafına daim diqqət yetirməyiniz bizi ürəkdən sevindirir. Bu baxımdan kəndarası yolların çəkilişi və Sarıcalı kəndində müasir məktəb binasının inşası məqsədilə ayırdığınız vəsait minlərlə insanın böyük sevincinə səbəb oldu. Möhtərəm cənab Prezident, dünya ölkələrinin iqtisadi çətinliklə qarşılaşdığı indiki dövrdə xalqımıza göstərdiyiniz maddi və mənəvi dəstəyə görə bir ziyalı kimi Sizə dərin minnətdarlığımı bildirirəm. Xalqımızın və dövlətimizin daha xoş gələcəyi naminə Sizə uzun ömür, cansağlığı arzu edirik. Tanrı Sizi qorusun!”

Quba şəhərindən **Seyran Fərəczadə:** “Hörmətli cənab Prezident, mən bir Azərbaycan vətəndaşı və gənc dindar kimi bu məktubu Sizə böyük qürur hissi ilə yazıram. Cənab Prezidentimiz, ölkə vətəndaşlarının sağlamlığının qorunması naminə gördüyünüz işlərə görə Sizə təşəkkür edirəm. Əminəm ki, Sizin rəhbərliyinizlə bütün çətinliklərin öhdəsindən uğurla gələcəyik. Azərbaycan xalqı Sizin bütün qərarlarınızla həmrəydir. Biz dindarlar həmişə Sizin dinimizə və dindarlara qayğınızı, dəstəyinizi çox görmüşük. Sizin kimi Prezidentimiz olduğu üçün fəxr edirik. Allah Sizi qorusun, bütün işlərinizə Sizə yardımçı olsun!”

Siyəzən şəhərindən **Vüqar Quliyev** və **Cavanşir Əfəndiyev** yazırlar: “Hörmətli cənab Prezident, xaricdən maliyyələşən bəzi şəxslər son zamanlar sosial şəbəkələrdə və bəzi saytlarda dövlətimizə qarşı qarayaxma kampaniyasına başlayıblar. Qeyd edim ki, bir vətəndaş olaraq bu, bizi narahat edir və bu məktub vasitəsilə Sizə dəstəyimizi bildiririk. Sizin



fəaliyyətinizi çox böyük maraqla və qürurla izləyirik. Sizin düzgün siyasətiniz nəticəsində biz pandemiya dövründə bir çox ölkələr kimi tənəzzülə uğramadıq. Siz işsizlərə, pensiyaçılara, əlillərə, veteranlara və sahibkarlara kömək göstərdiniz. Sizin göstərişlərinizə uyğun olaraq, banklar vətəndaşlara kreditlərin ödənilməsində möhlət verdi. Bunların hamısı ölkə əhalisinin rifahı, yaxşı yaşaması üçündür və biz bunları yüksək qiymətləndiririk. Möhtərəm Prezident, ataların bir məsəli var: “Balığı at dəryaya, balıq bilməsə də, xaliq biləcək”. Xalqımız Sizin işlərinizin dəyərini çox gözəl bilir və hər zaman Sizi dəstəkləyir”.

Salyan rayonunun Aşağı Kürkəndi kəndindən **Məhəbbət Dadaşov, Ramil Kərimov, Tamara İsmayılova** və **Elmira Hüseynova** yazırlar: Hörmətli cənab Prezident, son illərdə ölkəmizdə həyata keçirilən tədbirlər sırasında uşaqlara və məktəblilərə göstərilən yüksək qayğı böyük rəğbətlə qarşılanır. Dövlət səviyyəsində görülən belə tədbirlərin nəticəsidir ki, məktəblər əsaslı şəkildə yenidən qurulur, müasir tələblərə cavab verən yeni təhsil ocaqları tikilir. Sizin tapşırığınıza əsasən, Salyan rayon A.Əliyev adına Aşağı Kürkəndi kəndində 360 şagird yerlik üçmərtəbəli tam orta məktəb üçün yeni möhtəşəm bina tikilməkdədir. Müasir səviyyədə inşa olunan məktəbdə sinif otaqları ilə yanaşı, laboratoriyalar, kompüter otağı, fənn kabinetləri, tibb otağı, kitabxana, idman və akt zalları, yeməkxana da nəzərdə tutulub. Təhsillə bağlı strategiyanın həyata keçirilməsində Heydər Əliyev Fondunun fəaliyyəti xüsusilə diqqət çəkir. Fondun təhsil sahəsində ən böyük və irimiqyaslı təşəbbüsü olan “Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi uğurla davam edir. Fondun prezidenti Mehriban xanım Əliyevanın şagirdlərə qayğısı və diqqəti bütün kollektivlər və məktəb şagirdləri tərəfindən sevinclə qarşılanır. Eyni zamanda qeyd etmək istəyirik ki, hazırda Aşağı Kürkəndi kəndində yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində də işlər gedir. Kəndləri birləşdirən avtomobil yolları asfaltlanaraq sakinlərin istifadəsinə verilib. Kənddə köhnə qaz xətləri yeniləri ilə əvəz edilib. Cənab Prezident, biz kənd sakinləri olaraq Sizə dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Tanrı Sizi və ailənizi qorusun!”

Lənkəran şəhərinin Boladi kəndindən **Röya Əsgərov:** “Hörmətli cənab Prezident, mən Qazaxıstan Respublikasının Atırau bölgəsinin Tengiz vilayətində “TCO-Tengizchevroil” şirkətinə məxsus firmalarda işləyən azərbaycanlılar adından müraciət edərək, bizə göstərilən diqqət və qayğıya görə minnətdarlığımı bildirirəm. Sizin diqqət və qayğınız daim xalqımızın üzərində olub. Koronavirus pandemiyasının dünyanın əksər ölkələrinə geniş yayıldığı bir vaxtda Qazaxıstanda yaşayan və ya işləyən azərbaycanlılar hər an dövlətimizin qayğısını hiss etdilər. Diaspor təşkilatları vasitəsilə mütəmadi olaraq hamı barədə məlumat toplanır, lazım olan yardımlar edilirdi. Tengiz vilayətindən ölkəmizə təxliyə edildiyimizə, karantin dövründə Atletlər kəndində yaradılan şəraitə, yüksək xidmət səviyyəsinə görə Qazaxıstanda olan bütün azərbaycanlı əməkdaşlarımız adından Sizə dərin təşəkkürümüzü bildiririk. Biz - gənc mühəndislər Sizin siyasətinizi dəstəkləyir və çiçəklənən Azərbaycanın gələcəyini yalnız Sizinlə görürük. Sizə cansağlığı, daim xalqımızın yanında olmağı arzu edirik”.

Ağcabədi rayonundan **Eldəniz Qənbərov:** “Hörmətli cənab Prezident, Ağcabədi rayonunun Mingəçevir-Stansiya, Mingəçevir-Bəhramtəpə (109 km)-Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun, eləcə də Sarıcalı kəndində yeni ümumtəhsil məktəbinin tikintisi ilə əlaqədar tədbirlər haqqında imzaladığınız sərəncamlar biz - ağcabədililərin ürəyincədir və bizi çox sevindirir. Qədirbilən Azərbaycan xalqı Sizin ölkəmizin dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi yolunda göstərdiyiniz misilsiz xidmətləri çox yüksək dəyərləndirir. Sizin apardığınız müdrik daxili və xarici siyasət nəticəsində üçrəngli bayrağımız hər zaman yüksəklərdə əzmlə dalğalanır. Azərbaycanımızı istəməyən qüvvələr isə həmişə müdrik Heydər Əliyev siyasi kursu qarşısında çıxılmaz, gücsüz vəziyyətə düşürlər. Azərbaycan xalqı üçün gördüyünüz bu müdrik işlərinizi ürəkdən bəyənir, alqışlayır və bunlara görə Sizə dərin minnətdarlığımızı bildiririk. Sizinlə fəxr edir və qürur duyuruq. Uca Tanrı həmişə köməyiniz olsun və Sizi qorusun, cənab Prezident!”

Cəlilabad rayonunun Alar kəndindən **Dövlət Əliyev, Vasif Əskərov, Hüseynağa Hüseynov, Cəlal Əliyev** və **Vaqif Əsgərov** yazırlar: “Möhtərəm cənab Prezident, ölkəmizdə sahibkarlığın və kənd təsərrüfatının inkişafına göstərdiyiniz qayğı nəticəsində güzəranımız ildən-ilə yaxşılaşır. Yaşadığımız Alar kəndinin sakinləri digər sahələrlə yanaşı, kartofçuluqla da məşğuldurlar. İstehsal etdiyimiz məhsulu əsasən Rusiyaya ixrac edirik. Bu il pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, həm sahələrin suvarılmasında, həm də məhsulun satılmasında heç bir problemlə üzləşməmişik. Buna səbəb Sizin diqqət və qayğınızdır. Vaxtında bol suyun verilməsi sayəsində bol faraş məhsul yetişdirdik və Rusiya maşınlarının ölkəmizə buraxılması ilə məhsulumuzu xarici bazara çıxarıb sata bildik. Həm məhsulumuz itkiyə getmədi, həm də güzəranımız yaxşılaşır. Həmçinin qeyd etmək istəyirik ki, koronavirus pandemiyası dövründə sahibkarlara göstərdiyiniz dəstək sayəsində əziyyətimiz hədər getmədi. Bütün bunlara görə kəndimizin bütün əhalisi adından Sizə minnətdarlığımızı bildiririk. Allah Sizi xalqımıza çox görməsin!”

Kürdəmir rayonunun Xırdapay kəndindən **Natiq Qasımzadə:** “Hörmətli cənab Prezident, bütün dünyanın virusla mübarizə apardığı və əksər ölkələrin ağır vəziyyətlə üzləşdiyi bir vaxtda Azərbaycanda ardıcıl şəkildə həyata keçirilən sosial layihələr, xəstəliklə mübarizədə vəziyyətə uyğun addımların atılması və bu kimi digər işlər alqışalayiqdir. Vətəni, dövləti, xalqı, dövlətçiliyi üstün tutan hər bir Azərbaycan vətəndaşı kimi, mən də bu işlərə görə Sizə minnətdarlığımı bildirirəm. Qeyd etdiyiniz kimi, hər gün Sizə yüzlərlə təşəkkür məktubu gəlir, Ermənistan rəhbərliyi isə lənətlə dolu çağırışlar eşidir. Yol göstərənə “Sağ ol!”, yol azdırana da “Lənət olsun!” deyərlər. Bədnam ölkənin rəhbərliyi lənətə layiqdir. Sizə isə bu sözlər yaraşır: “Təşəkkür edirəm, cənab Prezident!”

Astara rayonunun Ərçivan qəsəbəsindən **Əli Əsədullayev** və **Hüseynağa Yusifov:** “Hörmətli cənab Prezident, Astara rayonunun Ərçivan qəsəbəsinin küçələrinin asfaltlanması ilə əlaqədar olaraq Sizə dərin minnətdarlığımızı bildirir, işlərinizdə uğurlar, möhkəm cansağlığı arzulayırıq. Sizin respublikamıza rəhbərliyiniz dövründə Azərbaycanın hər bir guşəsində abadlıq işləri görülüb, kənd və qəsəbələrdə infrastruktur yaxşılaşdırılıb, insanlar firavan həyata qədəm qoyublar. Bizim qəsəbənin sakinləri də əvvəllər bir sıra məsələlərdə əziyyət çəkirdilər. İndi isə rahat yollara, etibarlı və dayanıqlı kommunal xidmətlərə malikik. Bu işləri yüksək qiymətləndirmək, göstərilən qayğıya və köməyə görə Sizə “Çox sağ olun!” demək bizim vətəndaşlıq borcumuzdur. Əziz Prezidentimiz, Sizin ölkə vətəndaşlarına qayğıkeş münasibətiniz, doğma yurda məhəbbətiniz sayəsində Azərbaycanın daha da inkişaf edəcəyinə, insanların daha yaxşı yaşayacağına inanırıq. Qoy, bizi xoşbəxt gələcəyə bağlayan bu inam heç vaxt sarsılmasın!”

Şəki şəhərindən **Sərxan Lətifov:** “Hörmətli cənab Prezident, bu məktubu Sizə yazmağı özümə borc bilirəm. Pandemiya dövründə xalqımızı qorumaq üçün gördüyünüz qabaqlayıcı tədbirlərə, göstərilən maddi və mənəvi köməyə, xəstə insanlara edilən yardımlara görə Sizə minnətdaram. Karantin rejimini pozan insanlara qarşı polis əməkdaşları tərəfindən görülən tədbirlər bir neçə gündür mətbuatın əsas mövzularından birinə çevrilib və sosial şəbəkələrdə də geniş müzakirə olunur. Bəzi insanlar qanunlara, tələblərə əməl etmək əvəzinə, xəstəliyə inanıb-inanmamağı müzakirə edirlər. Belə görünür ki, o şəxslər sevdiklərini itirmədən xəstəliyin ciddiliyini başa düşməyəcəklər. Şəxsən mən bir vətəndaş olaraq qoyulan tələblərə əməl etməyən vətəndaşlara qarşı görülən adekvat tədbirləri dəstəkləyirəm. Ümumi mənzərə onu deməyə əsas verir ki, böyük əksəriyyət dövlətin həyata keçirdiyi tədbirləri dəstəkləyir və onlara əməl edir. Əziz Prezidentimiz, etiraf etməliyəm ki, Sizin dəyərinizi pandemiya dövründə daha yaxşı anladım. Allah ömrünüzü uzun etsin!”

Bakı şəhərinin Sabunçu rayonundan **Sənan Mustafayev:** “Hörmətli cənab Prezident, insanlığa təhlükə olan koronavirus infeksiyasının yayılmasına qarşı mübarizədə Sizin uzaqgörən siyasətiniz, vaxtında verdiyiniz qərarlar nəticəsində ölkəmiz bu gün pandemiyadan ən az zərər çəkən dövlətlərdən biridir. Mən məktəbliyəm. Operativ Qərargahın tələblərinə riayət edir, bütün qaydaları dəstəkləyirəm. Sizin müdrik idarəçiliyiniz sayənizdə ölkəmizdə bu bəlaya qarşı səmərəli tədbirlər görülür, xalqın rifahı naminə mühüm addımlar atılır. Görülən işlərə görə bir daha Sizə təşəkkür edir, münasibətimin hüdudsuz olduğunu bildirirəm”.

Gəncə şəhərindən **Elçin Cavadov:** “Çox hörmətli cənab Prezident, Prezident seçildiyiniz vaxtdan bu günədək Azərbaycan bütün sahələrdə, uğurlarla zəngin yolla irəliləyir. Bu gün ölkəmizin beynəlxalq aləmdə söz sahibinə çevrilməsi Sizin nəhəng dövlətlər arasında böyük nüfuza sahib olmağınızdan xəbər verir. Dövlətimizi beynəlxalq arenada tanıtmaq, söz sahibi etmək olduqca böyük zəhmət tələb edir. Bütün xalqımız kimi, gəncəlilər də Sizin bu böyük zəhmətinizi hər zaman yüksək qiymətləndirir, Sizinlə qürur duyur. Cənab Prezident, biz Sizin apardığınız daxili və xarici siyasətinizi daim dəstəkləyirik. Bunun səbəbi Sizin Azərbaycan xalqının xoşbəxt, firavan yaşaması, həmçinin sağlamlığının qorunması üçün yorulmadan çalışmağınızdır. Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gərgin və yorulmaz fəaliyyətiniz Azərbaycanın daha gözəl və qüdrətli olmasına, insanlarımızın xoşbəxt yaşamasına xidmət edir. Sizin xalqa xidmətiniz həm indiki, həm də gələcək nəsillər üçün nümunədir. Biz Sizinlə qürur duyuruq. Əminik ki, xalqımız Sizin bu əziyyətinizi heç zaman unutmayacaq. Şəxsən öz adımdan, ailəmizin və bütün gəncəlilərin adından Sizə təşəkkür edirəm. Bütün xalqımız, bütün gəncəlilər Sizi sevir, Sizi dəstəkləyir. Biz Sizinləyik. Sizin zərgər dəqiqliyi ilə apardığınız daxili və xarici siyasətinizin daha böyük uğurlar gətirəcəyinə inanırıq, bu yolda Ulu Tanrıdan Sizə kömək diləyirik. Allah Sizi qorusun!”

Ağdaş rayonundan **Faris Ədilov, İsmayıl Məmmədov** və **Əvəz Quliyev** yazırlar: “Möhtərəm cənab Prezident, son zamanlar sosial şəbəkələrdə dövlətimizə qarşı aparılan qərəzli kampaniyalar, bəzi nadanlar tərəfindən edilən ədalətsiz çıxışlar bizi vətəndaş kimi çox narahat edir. Hesab edirik ki, insanların sağlamlığı naminə həyata keçirilən tədbirlərə qarşı çıxan hər bir kəsə, ilk növbədə, elə biz vətəndaşlar özümüz tutarlı cavab verməliyik və veririk. Sizin koronavirusun geniş yayılmasının qarşısının alınması üçün tutduğunuz mövqe və gördüyünüz qabaqlayıcı tədbirlər çox təqdirəlayiqdir. Dost və qardaş dövlətlərə etdiyiniz yardımlar, Ümumdünya Səhiyyə Təşkilatına köçürülən vəsait Sizin nə qədər dürüst və alicənab olmağınızdan xəbər verir. Ağdaş şəhərinin, rayonun Ərəb və Qaradağlı kəndlərinin dindarları adından bildiririk ki, Sizin yürütdüyünüz siyasəti dəstəkləyirik. Sizə və Mehriban xanıma görülən işlərə görə minnətdarlığımızı bildirir, uzun ömür, cansağlığı arzulayırıq. Ulu Tanrı hər zaman köməyiniz olsun!”

Tərtər rayonundan **Çingiz Əhədov, Eldəniz Bayramov, Əli Xamoyev, Cuvar Ələsgərov, Teymur Abbasov** və **Zabil Paşayev** yazırlar: “Möhtərəm cənab Prezident, mənfur düşmənlərimizin bədnam əməlləri üzündən neçə illərdir ki, Tərtər rayonunun suvarma suyu ilə təminatında çətinliklər mövcuddur. Sərsəng su anbarından gələn suyun qarşısı kəsildiyindən o vaxtdan suvarma suyu çatışmazlığı yaranmışdır. Sizin qayğınızla biz bu problemi tədricən aradan qaldırmaqdayıq. Son illər ərzində Sizin sərəncamlarınıza və tapşırıqlarınıza uyğun olaraq rayonumuzun kəndlərində çoxlu sayda subartezian quyularının qazılması işimizə yarayır. Bir neçə gün bundan əvvəl bununla əlaqədar yeni sərəncam imzaladınız. Bu sərəncama əsasən, Tərtərin 18 kəndində 21 yeni subartezian quyusunun qazılması nəzərdə tutulur. Bu xoş xəbər bizi çox sevindirdi. Çünki yeni subartezian quyularının siyahısında bizim kəndlərin də adları qeyd olunmuşdur. Su bol olarsa, məhsulumuz da bol olar, kəndlilərin güzəranı daha da yaxşılaşar. Əziz Prezidentimiz, biz fermerlərə göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdarlığımızı bildirir, uzun ömür, cansağlığı, işlərinizdə yeni uğurlar diləyirik. Allah Sizi qorusun!”

Bakı şəhərindən **Kəmalə Musayeva** (müəllim): “Çox hörmətli möhtərəm Prezident, Sizin tərəfinizdən vaxtında həyata keçirilən uzaqgörən, qabaqlayıcı tədbirlər nəticəsində respublikamızda yeni növ koronavirus COVID-19 pandemiyası digər ölkələrlə müqayisədə daha az fəsadlarla keçməkdədir. Xalqımızın bu bəladan xilas olması üçün göstərdiyiniz səylər, verdiyiniz tapşırıqlar, vətəndaşlara infeksiyadan qorunmaqla bağlı etdiyiniz müraciətlər bizi çox sevindirdi. Virusun daha çox yaşlı nəsli öz çənginə aldığını nəzərə alaraq, bu qrup əhalinin xüsusi qayğı ilə əhatə olunması, bütün təhsil müəssisələrinin, uşaq bağçalarının vaxtında bağlanması, aztəminatlı ailələrin müavinətlə, ərzaq yardımı ilə təmin edilmələri, aztəminatlı ailələrdən olan tələbələrin təhsil haqqının dövlət büdcəsindən ödənilməsi, işləyən əhalinin ödənişli məzuniyyətə çıxarılması və gördüyünüz digər operativ, ardıcıl, vacib tədbirlər bizim ölkəmizi dünyada bu virusla mübarizədə fərqləndirdi. Təbii ki, bütün bu nailiyyətlər Sizin qətiyyətli və ciddi iradəniz, elmi və məntiqi cəhətdən əsaslandırılmış yanaşmanız, ən əsası da kökündə vətənpərvərlik, insanseverlik dayanan qərarlarınız sayəsində əldə edilib. Hörmətli cənab Prezident, mən inanıram ki, Sizin müdrik qərarlarınızla biz bu bəladan minimum zərərlə qurtulacağıq. Dünyada yaşayan azərbaycanlılar Sizin “Biz birlikdə güclüyük!” çağırışınız ətrafında birləşdi. Ölkəmizi müxtəlif təhdidlərdən qoruyan, onun davamlı və böyük uğurlar əldə etməsinə imkan yaradan mühüm səbəblərdən biri məhz liderlə xalq arasında olan bağlılıqdır. Bizim bugünkü qüdrətli, əzəmətli Azərbaycanımız da lider-xalq birliyinin təcəssümü və təzahürüdür. Mən bir azərbaycanlı, müəllim olaraq öz adımdan, ailəmin adından gördüyünüz işlər, yürütdüyünüz daxili və xarici siyasət üçün Sizə minnətdarlığımı bildirirəm. Fəxr edirəm ki, Sizin kimi xalqını, millətini sevən, xalqının sağlamlığı üçün bütün gücünü səfərbər edən Prezidentimiz var. Biz dövlətçiliyimizin inkişafı, millətimizin xoşbəxtliyi, ölkəmizin ərazi bütövlüyü uğrunda apardığınız mübarizədə daim Sizi dəstəkləyir və Sizinləyik. Cənab Prezident, Sizin qətiyyətli addımlarınızın nəticəsi olaraq artıq ölkəmizdə yeni idarəetmə modeli formalaşır. Korrupsiya və rüşvətxorluğa qarşı tutduğunuz ciddi mübarizə siyasəti öz töhfəsini verməkdədir. Gördüyünüz bütün tədbirlərdə əsas məqsəd vətəndaş məmnunluğuna hesablanır. Bunlar xalq-Prezident həmrəyliyini artırır, Sizə olan inamı da gücləndirir. Müstəqil, güclü Azərbaycan naminə gördüyünüz işlərdə Sizə yeni uğurlar arzulayıram”.

Şirvan şəhərindən **Xeyrulla Əzizov:** “Hörmətli cənab Prezident, hər keçən gün dünyada pandemiya ilə bağlı vəziyyət dəyişir. Sizin proseslərə çevik reaksiya verərək böyük bir bəla olan koronavirusun kütləvi yayılmasının qarşısının alınması məqsədilə qəbul etdiyiniz operativ qərarlar, həyata keçirdiyiniz qabaqlayıcı tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunması baxımından misilsiz əhəmiyyət daşıyır. Möhtərəm Prezidentimiz, bu günlərdə Sizin Tərtərdə Dövlət Rəmzləri Muzeyinin açılışı zamanı tibbi maskadan istifadə etməniz hər birimiz üçün nümunə oldu. Bununla da bildirdiniz ki, hər bir vətəndaş öz şəxsi məsuliyyətini hiss etməli, özünün və yaxınlarının sağlamlığını fikirləşərək tətbiq olunan qaydalara riayət etməlidir. Biz vətəndaşların vəzifəsi Sizin qərarlarınıza əməl etməkdir. Bu çətin günlərdə Siz xalqımıza dayaqsınız, xalqımız isə daim Sizinlədir. Möhtərəm Prezident, biz şirvanlılar Sizin “Biz birlikdə güclüyük!” şüarınıza qoşularaq həmişə Sizinləyik və hər zaman Sizin arxanızda böyük bir qüvvə kimi dayanmağa hazırıq. Allah Sizi qorusun, Azərbaycan xalqına çox görməsin!”

Sabirabad şəhərindən **Nadir Quliyev:** “Möhtərəm cənab Prezident, dünyada tüğyan edən pandemiya ilə əlaqədar Azərbaycanda qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, bu xəstəlikdən əziyyət çəkən bəzi ölkələrə yardım göstərilməsi, qısa müddət ərzində ölkəmizdə modul tipli xəstəxanalar, dezinfeksiya məhsulları və maska istehsal edən fabriklərin inşa edilməsi, karantin dövründə 600 min insana birdəfəlik maddi yardımın verilməsi, sahibkarlara maddi dəstəyin göstərilməsi və görülən digər işlər xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır. Bütün bunlara baxmayaraq, “beşinci kolon”un nümayəndələri bu uğurlu addımlara kölgə salmağa çalışırlar. Sabirabadlılar belə insanları qətiyyətlə qınayır və Sizin arxanızda olduqlarını bildirir, həyata keçirdiyiniz daxili və xarici siyasətinizi dəstəkləyirlər. Möhtərəm cənab Prezident, sadaladığım bunları xalqımızın sağlamlığı, sosial rifah halının yaxşılaşması və onun pandemiya dövründə əziyyət çəkməməsi üçün atılan addımlar kimi qiymətləndiririk. Siz bu addımları atmaqla dünyaya Azərbaycan modeli təqdim etdiniz. Hətta beynəlxalq təşkilatların nümayəndələri də Sizinlə keçirdikləri videogörüşlərdə bu haqda qeyd ediblər. Mən bir vətəndaş olaraq bütün bunlara görə Sizə və Sizinlə çiyin-çiyinə çalışan Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya sonsuz təşəkkürümü bildirir, yorulmaz fəaliyyətinizdə uğurlar arzulayıram. Allahdan Sizə cansağlığı və xoş günlər diləyirəm”.

Lerik rayonunun Zürüz kəndindən **Sərəstun Kazımov:** “Hörmətli cənab Prezident, bütün dünya ölkələri koronavirus pandemiyası ilə mübarizəyə qoşulub. Bu mübarizə tədbirlərini izlədikcə Azərbaycanın daha uğurlu yollardan istifadə etdiyini görürük. Bu isə Sizin uzaqgörənliyiniz, qətiyyətiniz sayənizdə baş verir. Xüsusi karantin rejiminin tətbiqi və qəbul olunan qərarlar xalqın ürəyincədir. Biz bu qərarları dəstəkləyir, bizi qoruduğunuz üçün Sizə “çox sağ olun” deyirik. Karantin dövründə işsiz şəxslərin birdəfəlik ödəmə ilə təmin olunması Sizin xalqın hər bir üzvünə olan qayğınızın bariz göstəricisi idi. Mən də işsiz kimi “Dost-İş” mərkəzinə müraciət etdim. Artıq işlə təmin olunmuşam, işimdən də razıyam. Bu şəraitə, bizlərə göstərilən diqqət və qayğıya görə öz adımdan və ailəmin adından minnətdarlığımı bildirir, güclü Azərbaycan naminə bundan sonrakı fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Allah Sizə yar olsun!”

# Milli Məclisin Gənclər və idman komitəsi Milli Qurtuluş Günü ilə əlaqədar gənclərlə onlayn konfrans keçirib

İyunun 15-də Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevin təşəbbüsü ilə 15 İyun - Milli Qurtuluş Günü münasibətilə gənclərlə onlayn konfrans keçirilib.

Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, konfransda parlamentin Sədr müavini Adil Əliyevlə yanaşı, Gənclər və idman komitəsinin üzvləri Könül Nurullayeva, Şahin Seyidzadə, Etibar Əliyev, Jalə Əliyeva, habelə Milli Məclis Aparatının əməkdaşları, gənclər təşkilatlarının nümayəndələri iştirak ediblər.



İclası açan Adil Əliyev, ilk növbədə, Milli Qurtuluş Günü ilə əlaqədar təbriklərini çatdırıb. Vitse-spiker bu günün əbədiyaşar Liderimiz Heydər Əliyevin adı ilə bağlılığı, xalqın xilaskarına çevrilən Ulu Öndərin 1993-cü ilin 15 iyun tarixində xalqının səsini eşidərək hakimiyyətə qayıtması, bununla da müstəqil dövlətimizi dünya xəritəsindən silinmək təhlükəsindən xilas etməsi barədə fikirlərini bölüşüb. Adil Əliyev Ulu Öndərin müasir müstəqil Azərbaycan Respublikasının memarı olmasını, onun böyük əməyi nəticəsində Azərbaycanın qısa zamanda regionun liderinə çevrilməsini, onun əsasını qoyduğu ideyaların bu gün Prezident İlham Əliyev tərəfindən çox böyük uğurla davam etdirildiyini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Onlayn tədbirdə çıxış edən Milli Məclisin deputatı Şahin Seyidzadə Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən danışıb və bu əlamətdar gün münasibətilə iştirakçıları təbrik edib.

Deputat Jalə Əhmədova isə Ümummilli Liderin hakimiyyətə qayıtması ilə ölkədə bütün özbaşınalıqlara son qoyulduğunu, müstəqil Azərbaycan dövlətinin onun gərgin əməyinin bəhrəsi olduğunu qeyd edib.

Onlayn konfransda çıxış edən deputat Könül Nurullayeva gənclərin Ulu Öndər Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan Respublikasında yaşamalarından və onun siyasi kursunun uğurla davam etdirilməsindən böyük qürur duyduqlarını söyləyib.

Deputat Etibar Əliyev isə Ulu Öndərin xilaskarlıq missiyasından danışıb, onun siyasi irsinin gənc nəsil tərəfindən öyrənilməsinin vacibliyini diqqətə çatdırıb.

Sonra konfrans iştirakçıları Ümummilli Liderin həyatı, onun ölkəmiz və xalqımız üçün gördüyü nəhəng işlər barədə fikirlərini bölüşüb, tədbirin təşkilatçılarına minnətdarlıqlarını ifadə ediblər.

Tədbirin sonunda münsiflər heyəti Gənclər və idman komitəsinin Azərbaycan, rus və ingilis dillərində keçirdiyi "Ulu Öndər Azərbaycan xalqının xilaskarıdır" adlı esse müsabiqəsinin qaliblərini elan edib.

Bununla da Gənclər və idman komitəsinin təşkilatçılığı və gənclərin iştirakı ilə keçirilən 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş onlayn konfrans başa çatıb.

# Bakının Xəzər və Sabunçu rayonlarında polis şöbə və bölmələrinin yeni inzibati binaları istifadəyə verilib





15 İyun - Milli Qurtuluş Günündə Xəzər Rayon Polis İdarəsinin 1-ci Polis Şöbəsinin və Sabunçu Rayon Polis İdarəsinin 13-cü Polis Bölməsinin yeni inzibati binalarının açılışı olub.

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov hər iki tədbirdə iştirak edib.

Məlumat verilib ki, 2 mərtəbəli inzibati binalar ən müasir standartlara uyğun inşa edilib, bütün zəruri avadanlıq, kommunikasiyalar və texniki qurğularla, mebel və inventarla təmin olunub. Hər iki binanın daxilində silah saxlama otağı, idman sağlamlıq zonası və yeməkxana var. Yeni tikililər havalandırma, mərkəzi istilik sistemi, qazanxana və rabitə-kommunikasiya xətləri ilə təmin edilib, digər yardımçı sahələr yaradılıb. Ərazilər hasarlanıb, abadlaşdırma, yaşıllaşdırma və xarici işıqlandırma işləri yerinə yetirilib.

Nazir yeni binaların foyesində olan Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətini, Prezident İlham Əliyevin daxili və xarici siyasət sahəsində əldə etdiyi uğurları, daxili işlər orqanlarına xüsusi diqqət və qayğısını əks etdirən fotostendlərlə tanış olub, növbətçi hissələrə, xüsusi avadanlıq və kompüter sistemi ilə təchiz edilmiş xidməti otaqlara baxıb.

General-polkovnik Vilayət Eyvazov görülən işləri yüksək qiymətləndirib, tapşırıq və tövsiyələrini verib. O, xalqımız üçün ən əlamətdar günlərdən biri olan Milli Qurtuluş Günündə iki yeni inzibati binanın açılışını məmnunluqla qeyd edərək əmin olduğunu bildirib ki, şəxsi heyət dövlətin göstərdiyi bu ali diqqət və qayğıya layiqli xidməti ilə cavab verəcək.

# Müdafiə naziri yeni hərbi şəhərcik kompleksinin açılışında iştirak edib







Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı göstərişinə əsasən yeni inşa edilən hərbi hissənin açılışı olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və nazirliyin digər rəhbər heyətinin iştirakı ilə hərbi şəhərcik ərazisindəki qərargah, yeməkxana, tibb məntəqəsi, əsgər yataqxanası, avtomobil parkı, müxtəlif təyinatlı döyüş silah və sursatlarının saxlanması üçün anbarlar, eləcə də digər infrastruktur obyektlərinə baxış keçirilib.

Şəhərcik ərazisində hərbi qulluqçuların ailələri üçün nəzərdə tutulmuş yeni binanın açılış mərasimi olub.

Hərbçiləri və ailə üzvlərini təbrik edən Müdafiə naziri bu yaxınlarda Hövsan qəsəbəsində hərbi qulluqçular üçün istifadəyə verilən daimi mənzillərin və "Qobu Park-3" yaşayış kompleksinin açılışında Ali Baş Komandanın iştirakını qeyd edərək bu istiqamətdə görülən kompleks tədbirlərin dövlət başçısının Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğının bariz nümunəsi olduğunu xüsusi vurğulayıb. Nazir bu hərbi hissənin açılışını Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması istiqamətində atılan növbəti addım olduğunu qeyd edib.

Silahlı Qüvvələrin Ali Baş Komandanının qayğısı nəticəsində son illərdə planlı şəkildə hərbi qulluqçuların daimi və xidməti mənzillərlə təmin olunduğunu bildirən Müdafiə naziri bu işlərin davamlı olacağını diqqətə çatdırıb. Nazir deyib ki, cari ildə müxtəlif bölgələrdə, xüsusilə cəbhəboyu zonada yerləşən bir sıra hərbi hissədə 250-dən artıq xidməti mənzil istifadəyə verilib. Bu ilin sonunadək isə daha 200-dək xidməti mənzilin tikintisinin sona çatdırılması planlaşdırılır.

Yeni bina ilə tanışlıq zamanı məlumat verilib ki, beşmərtəbəli bina tam təmirli üçotaqlı 60 mənzildən ibarətdir. Mənzillər bütün kommunikasiya xətləri ilə təchiz olunub. Bina üçün nasosxana, hovuz, yarımstansiya tikilib, qaz, su, işıq sayğacları qoyulub, mənzillər mətbəx və digər mebel dəsti ilə təmin edilib. Ərazi hasara alınıb, asfalt döşənib, uşaqlar üçün şəhərcik salınıb, idman qurğuları ilə təmin olunub, avtodayanacaq üçün yer ayrılıb, su təmizləyici qurğu quraşdırılıb və yaşıllaşdırma işləri görülüb. Hərbi qulluqçuların ailə üzvlərinin səmərəli istirahəti üçün lazımi şərait yaradılıb.

Hərbi qulluqçular göstərilən qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Mənzillərin açarları hərbi qulluqçulara təqdim edildikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi yaradılan şəraitlə tanış olub və ailələrin qayğıları ilə maraqlanıb.

# Dövlət Sərhəd Xidməti Akademiyasının növbəti məzunlarının təntənəli buraxılış mərasimi olub

Yaradılmasının 13-sü ildönümünü qeyd edən Dövlət Sərhəd Xidmətinin (DSX) Akademiyası böyük inkişaf yolu keçərək qabaqcıl hərbi təhsil müəssisəsi səviyyəsinə yüksəlib. Bu müddət ərzində DSX-nin Akademiyasında Azərbaycan dövlətçiliyinə sədaqətli, peşəkar sərhədçi zabitlərin hazırlanması, hərbi qulluqçuların döyüş hazırlığının təkmilləşdirilməsi, dövlət sərhədinin mühafizəsi və hərb sahəsində elmi tədqiqatların aparılması üçün mükəmməl elmi-pedaqoji potensial və ən yüksək standartlara cavab verən maddi-texniki baza formalaşdırılıb.



DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, iyunun 16-da Dövlət Sərhəd Xidməti Akademiyasının növbəti məzunlarının təntənəli buraxılış mərasimi keçirilib.

Dövlət Himninin ifası ilə başlanan tədbirdə Ulu Öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətləri, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində yüksək nailiyyətlərin əldə olunduğu qeyd edilib.

Milli sərhədçi kadrların hazırlanmasına xüsusi önəm verən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2010-cu ildə DSX Akademiyasının açılış mərasimindəki çıxışında sərhədçilər qarşısında qoyduğu - şəxsi heyətin döyüş və peşəkar hazırlığının gücləndirilməsi, bilikli, savadlı və vətənpərvər, Azərbaycan dövlətçiliyinə sadiq zabitlərin yetişdirilməsi kimi tapşırıqların ən yüksək səviyyədə icra olunduğu, görülmüş tədbirlər nəticəsində Dövlət Sərhəd Xidmətinin Akademiyasının təkcə ölkəmizin deyil, regionun beynəlxalq səviyyəli qabaqcıl ali hərbi təhsil müəssisələrindən birinə çevrilməsi qürurla vurğulanıb.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbriki şəxsi heyətə çatdırılıb, dövlət bayrağımızın qısa müddətdə işğaldan azad olunacaq şəhər və kəndlərimizdə dalğalanacağı, Heydər Əliyev dövlətçiliyinin əsgəri olan Azərbaycan sərhədçilərinin Ali Baş Komandanın bütün əmr və göstərişlərini ən yüksək səviyyədə icra etməyə daim hazır olmaları xüsusi qeyd olunub.

DSX Akademiyasını bitirən leytenantlara diplomlar təqdim olunub və gənc zabitlər "Sərhədçi andı"nı qəbul ediblər. Tədbirin sonunda zabitlər və kursantlar təntənəli marşla tribunanın önündən keçiblər.

# Milli Məclis komitələrinin onlayn iclasları

İyunun 16-da Milli Məclisin Elm və təhsil komitəsinin onlayn iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, komitənin sədri Bəxtiyar Əliyev bildirib ki, gündəliyə "Dövlət rüsumu haqqında", "Dövlət qulluğu haqqında", "Peşə təhsili haqqında", "Ümumi təhsil haqqında" və "Məktəbəqədər təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə bir məsələ daxil edilib.

Qanun layihəsi "Təhsil haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında" 2020-ci il 24 aprel tarixli 58-VIQD nömrəli Qanunun icrası ilə əlaqədar hazırlanıb.

Adıçəkilən qanuna əsasən, Azərbaycan Respublikasında dövlət təhsil müəssisələrinin fəaliyyəti üçün lisenziya tələbi aradan qaldırılıb. Bununla da dövlət təhsil müəssisələri istisna olmaqla, hər bir təhsil müəssisəsi təhsil fəaliyyəti göstərmək üçün "Lisenziyalar və icazələr haqqında" qanunla müəyyən edilmiş qaydada lisenziya almalıdır.

Bildirilib ki, "Dövlət qulluğu haqqında" qanuna təhsil müəssisəsi və təhsil pilləsi ilə bağlı təklif olunan dəyişiklik isə dəqiqləşdirmə məqsədi daşıyır.

Sonra komitə üzvləri gündəlikdəki məsələni yekdilliklə Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər.

Onlayn iclasda komitə üzvləri Musa Qasımlı, İsa Həbibbəyli, Ceyhun Məmmədov, Aqiyə Naxçıvanlı, Ülviyyə Ağayeva, Tamam Cəfərova, Etibar Əliyev, Kamilə Əliyeva, Afət Həsənova, Rafael Hüseynov, Anar İsgəndərov, Pərvin Kərimzadə, Eldar Quliyev, Müşfiq Məmmədli, Şahin Seyidzadə və Fatma Yıldırım iştirak ediblər.

Gündəlikdəki məsələnin müzakirəsi yekunlaşdıqdan sonra komitə sədri Bəxtiyar Əliyev koronavirusla mübarizədə deputatları daha diqqətli olmağa, özlərini və yaxınlarını qorumaq üçün pandemiya rejiminin tələblərinə həssas yanaşmağa çağırıb.

Bununla da Milli Məclisin Elm və təhsil komitəsinin iclası başa çatıb.

* * *

İyunun 16-da Milli Məclisin Səhiyyə komitəsinin növbəti onlayn iclası keçirilib.

Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Komitə sədri Əhliman Əmiraslanov bildirib ki, gündəliyinə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş), "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihələri daxil edilib.

Əhliman Əmiraslanov qeyd edib ki, Azərbaycan Respublikası "Dövlət rüsumu haqqında" Qanun "Əhalinin sağlamlığının qorunması" haqqında 2019-cu il 27 iyun tarixli 1628-VQD nömrəli Qanunun icrası ilə əlaqədar hazırlanıb. Həmin qanuna əsasən tibb müəssisələrinin akkreditasiyasının keçirilməsinə görə tutulan dövlət rüsumunun dərəcələri ambulator xidmət göstərən tibb müəssisələri üçün 2000 manat, stasionar xidmət göstərən tibb müəssisələri üçün isə 4000 manat müəyyənləşdirilib. Sənətdə akkreditasiyaya görə dövlət rüsumunun xüsusiyyətləri öz əksini tapıb.

Onlayn iclasda bildirilib ki, İnzibati Xətalar Məcəlləsində, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və həmin qanuna 1 saylı Əlavədə "dərman qutuları" sözlərinin "ilk tibbi yardım qutusu" sözləri ilə əvəz edilməsi təklif edilir. Belə ki, əksər xarici dövlətlərin də təcrübəsi nəzərə alınaraq ilkin tibbi yardım zamanı zərərçəkənlərə ixtisasca həkim olmayan şəxslər tərəfindən hər hansı dərman vasitələrinin verilməsi məqbul hesab edilmədiyinə və dərman vasitəsinin avtomobildə saxlanması şəraitinin (temperatur, rütubətlik və sairə amillər baxımdan) onun keyfiyyətinin pozulmasına səbəb ola biləcəyinə görə nəqliyyat vasitələrində (avtobusda, minik və yük avtomobillərində, təkərli traktorda) dərman vasitələrinin saxlanılması məqsədəmüvafiq hesab edilmir. Bunu nəzərə alaraq ilk tibbi yardım qutusunda yol-nəqliyyat hadisələri zamanı ilkin tibbi yardım göstərilməsinə kifayət edə biləcək qədər və çeşiddə tibbi ləvazimatlar və dərman vasitələri nəzərdə tutulmalıdır.

İclasda komitə üzvləri Rəşad Mahmudov, İlham Məmmədov, Soltan Məmmədov, Məlahət İbrahimqızı, Ülvi Quliyev, Müşfiq Məmmədli, Kəmaləddin Qafarov, Kamilə Əliyeva, Anatoliy Rafailov, Sədaqət Vəliyeva qanun layihələri ilə bağlı öz fikirlərini bildiriblər.

Müzakirələrdən sonra hər üç qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Ermənistan vətəndaş müharibəsinə gedir

## İşğalçı ölkədə siyasi böhran dərinləşir











Bu günlər Ermənistanda narazılıq və qarşıdurma həddinin daha da yüksəlməsi, müxalifət ilə mövcud hakimiyyət arasında ziddiyyətlərin bir qədər də kəskinləşməsi müşahidə olunur. İqtidar və müxalifət arasında yaranan ziddiyyətlər getdikcə dərinləşməkdə, buna paralel olaraq tərəflərin bir-birinə yönəlik qarşılıqlı ittihamları da artmaqdadır.

Baş nazir Nikol Paşinyan isə ona qarşı olanları sıradan çıxarmaq üçün artıq repressiv metodlardan istifadə edərək məqsədlərinə nail olmaq niyyətindədir. Son olaraq işğalçı ölkədə vəziyyətin gərginləşməsinə səbəb isə Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) "Çiçəklənən Ermənistan" Partiyasının sədri Qaqik Tsarukyana qarşı üç maddə üzrə cinayət işi açmasıdır.

### Koçaryanın biznes ortağına cinayət işi açıldı

İlkin olaraq Tsarukyana məxsus "Onira klab" şirkətində 60 milyon dollar (29 milyard dram) dəyərində qanun pozuntusu aşkarlandığı barədə məlumat yayılıb. Qeyd olunub ki, dövlət büdcəsinə 60 milyon dollar ziyan vurulması ilə bağlı cinayət işi açılıb, istintaq və məhkəmə-prosessual hərəkətlərinə başlanılıb. Tsarukyana məxsus villada və "Çiçəklənən Ermənistan" Partiyasının regionlardakı ofislərində axtarışlar aparılıb. "Çiçəklənən Ermənistan" Partiyasının mətbuat katibi Sveta Tonoyan bəyan edib ki, Tsarukyan şirkəti etibarnamə ilə idarəetməyə verib və özü bizneslə məşğul deyil.

Eyni zamanda Tsarukyan Kotaysk əyalətinin Arinc şəhərində 7,5 hektar torpaq sahəsini qanunsuz əldə etməkdə də ittiham edilib. Kənd təsərrüfatı təyinatlı torpaq sahəsi əvvəlcə bir şirkətin adına keçirilib, sonra isə özəlləşdirilib, üzərində təyinatına uyğun olmayan tikinti işləri aparılıb. Beləliklə, torpağın təyinatına uyğun istifadə edilməməsi nəticəsində 342 milyon dram (685 min dollar) ziyan vurulub.

MTX partiya rəhbərliyi və üzvlərinin 2017-ci ildə parlament seçkiləri zamanı xeyriyyəçilik adı altında seçicilərə 100 milyon dram rüşvət verdiklərini də açıqlayıb. İstintaq çərçivəsində partiyanın 40-a yaxın ofisində axtarış aparılıb, kompüterlər və digər elektron məlumat daşıyıcıları götürülüb.

Onu da qeyd edək ki, Tsarukyan sabiq prezident Robert Koçaryanın bir nömrəli biznes ortağıdır və siyasi meydanda da onunla birləşməyi düşünürdü. Bu amil də Ermənistanda ictimai-siyasi müstəvidə gərginliyin daha da yüksələcəyini göstərir.

### "Nikol, get!", "Tsarukyan baş nazirdir!"

İyunun əvvəlində hökuməti istefaya çağıran Tsarukyan deyib ki, villasında aparılan axtarışlar siyasi xarakter daşıyır: "Bu, əlbəttə, siyasi təqibdir. Mən bəyan etmişdim ki, hökumət vəziyyətlə bacara bilmir. Hazırda pandemiya ölkədə tüğyan edir, 3 ay sonra aclıq başlayacaq". Partiya sədri ifadə vermək üçün Milli Təhlükəsizlik Xidmətinə çağırılıb: "Mən hazırda ifadə verməyə gedirəm, ancaq hansı suallara cavab verməli olduğumu bilmirəm. Məni şantaj etmək, qorxutmaq nəticə verməyəcək".

Bütün bunlara cavab olaraq çoxlu sayda insan Ermənistan Milli Təhlükəsizlik Xidmətinin binası qarşısında etiraz aksiyasına başlayıb. Tsarukyanın tərəfdarları olan etirazçılar baş nazir Nikol Paşinyanın istefasını tələb ediblər. Əraziyə polis qüvvələri yeridilib. Polis etirazçıların qarşısını kəsib və onların binaya daxil olmasına imkan verməyib.

Etirazçılar "Tsarukyan!", "Nikol, get!", "Tsarukyan baş nazirdir!" şüarlarını səsləndiriblər. Polis 252 nəfər iştirakçını saxlayıb. Onların saxlanılmasına səbəb kimi fövqəladə vəziyyət rejimi zamanı qaydaları pozaraq kütləvi aksiya keçirmələri göstərilir.

### Polis deputatlara da güc tətbiq edib

Polis həmçinin müxalif "Çiçəklənən Ermənistan" Partiyasının sədri Qaqik Tsarukyana qarşı 3 cinayət işinin açılmasına və ifadəyə çağırılmasına etiraz edən deputatlara qarşı da güc tətbiq edib. Yerli medianın verdiyi xəbərə görə, aksiyada "Çiçəklənən Ermənistan" fraksiyasının deputatları İvetta Tonoyan, Naira Zoqrabyan, Karine Poqosyan, Arman Abovyan, Qevork Petrosyan iştirak ediblər. Polisin güc tətbiq etməsi nəticəsində deputatlardan Karine Poqosyan və Arman Abovyan xəsarət alıblar, Caanibek Ayrapetyanı isə polislər sürüyüblər. Digər deputatlar Caanibek Ayrapetyanın hara aparıldığını bilmədiklərini söyləyiblər. Bir müddət sonra isə polis həmin deputatın ərazidən uzaqlaşdırıldığını bildirib.

### Qaqik Tsarukyanın deputat toxunulmazlığı ləğv edilib

Bu arada dünən baş prokuror Artur Davtyanın təqdim etdiyi vəsatətlər əsasında Ermənistan parlamentində Qaqik Tsarukyanın deputat toxunulmazlığından məhrum edilməsi və həbsi məsələsi müzakirə olunub. Bununla bağlı parlamentin qarşısında keçirilən etiraz aksiyasında 103 nəfər saxlanılaraq polis bölməsinə aparılıb. Onların arasında Olimpiya mükafatçısı Roman Amoyan da olub.

Axşam saatlarında başa çatan müzakirələrin yekununda Tsarukyanın deputat toxunulmazlığı ləğv edilib. Müxalifətdə olan "Çiçəklənən Ermənistan" Partiyası və "İşıqlı Ermənistan" Partiyasından olan deputatlar səsverməni boykot ediblər. Toxunulmazlığın ləğvinin lehinə 87 deputat səs verib, əleyhinə və bitərəf olmayıb.

Geniş miqyasda artan bu etirazlar fonunda aydındır ki, Paşinyanın da uzun müddət iqtidarda qala bilməsi ciddi sual altına düşür.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Hippokrat andı, vicdan və məsuliyyət hissi

İnsanın Həyata və Ölümə münasibəti sözsüz ki, dünyəvi məzmun daşıyır. Onu həm də ümumbəşəri mədəniyyətdən kənarda təsəvvür etmək olmaz. Həkim və tibb işçisi üçün isə onun peşə əxlaqı və dəyəri ən vacib şərtlərdəndir. Bu mənada Həyata və Ölümə münasibət prosesində tibbin maraqları fəlsəfənin, hüququn, dinin, ədəbiyyatın və incəsənətin maraqları ilə üst-üstə düşür. Bütün hallarda tibb üçün bu məsələ xüsusi problemlidir, yəni burada reallıq və təcrübə mühüm rol oynayır, çünki həkim müxtəlif vəziyyətlərdə daim o problemlə - "olum ya ölüm"lə üzləşir.



Məlumdur ki, hələ qədim zamanlardan təbabətlə məşğul olan həkim üçün ali etik norma müəyyən edilmişdi: "Non nocere!", yəni zərər vurma! Daha dəqiq desək, pasiyentin həyatına, sağlamlığına, dincliyinə zərər vurma! Xəstənin həyatına və şəxsiyyətinə ehtiram göstərmək həkimlik etikasının ana xəttidir, Hippokratdan ta bu günə kimi qüvvədədir və öz mahiyyətini də itirməyib. O zamandan tibbdə insan həyatı və onun sağlamlığı problemi həyatın əsas etik normasına dönüb.

Əlbəttə, zaman-zaman həkimlik peşəsiylə bağlı, təbabətlə həyatın mənəvi-əxlaqi mənası və münasibətlərinə dair müxtəlif filosofların müxtəlif baxışları və konsepsiyaları olub və bu gün də mövcuddur. Bulqakovun, Dostoyevskinin, Bekonun, Frankın, Fyodorovun və onlarca zəka sahiblərinin Hippokrat andından qaynaqlanan etik normalarının əsas məğzini elə insan sağlamlığı təşkil edib. Bütün bu ümumi baxışlar məcmuəsindən savayı, bir də var canlı etika, yəni kökü qədim hind sivilizasiyasının buddist ideyaları ilə mayalanan etika. Bu təlimə görə, bizim planetimiz Od dövrünə qədəm basıb. Burada psixi enerjinin rolu getdikcə çoxalır və o da təbiətin mənəvi yeniləşməsini ehtiva edir. "Canlı etika" həm də həmrəylik deməkdir, birlik simvoludur, humanistlik, mərhəmət, şəfqət, ədalət kimi fəzilətləri özündə cəm edir. Bu gün belə etik-fəlsəfi dəyərləri özündə birləşdirən baxışlar çoxdur, onları da birləşdirən bir ümumi xətt var: ən qiymətli dəyər HƏYATdır.

Lakin mən bu gün dünyanın belə bir ağır durumunda, xüsusilə ən qiymətli dəyər olan insan həyatına qəflətən və amansızcasına hücum edən naməlum bir düşmənin - koronavirus pandemiyasının, COVID-19 virusunun sürətlə yayıldığı və ölkəmizi də qismən bürüdüyü bir zamanda bizim qəhrəman səhiyyə işçilərinin vəzifə borcları ilə yanaşı, vicdanlı və məsuliyyətli əməyi barədə söz açmaq istəyirəm.

Səhiyyə sistemi təkcə həkimlərdən ibarət deyil, həkimlər bu sistemin çox cüzi faizini təşkil edir. Burada minlərlə personal çalışır - tibb işçiləri, yuxarı və orta menecment, texniki personallar, əczaçılar, təchizatçılar... Səmimi deyirəm: bu gün əsas yük, güc və enerji də onların üzərinə düşür. Həkim-xəstə münasibətləri, həkim-personal münasibətləri, personal-menecment münasibətləri, xarici və daxili əlaqələr və tənzimləmələr - bütün bunlar nəhəng bir səhiyyə sisteminin normal işləməsi üçün lazım olan ən mühüm idarəetmə prosesləridir. Belə bir ağır durumda bu işlərin öhdəsindən bacarıqla gəlmək, sözün əsl mənasında, qəhrəmanlıqdır. Çöldən hər şey asan görünə bilər, amma mənə inanın - bu, görünən kimi deyil...

Sadəcə tibbi baxımdan həkimin vəzifə borcunu yerinə yetirməsində Hippokrat andı kimi etik dəyərdən yox, bütövlükdə tibb və səhiyyə işçilərimizin öz işlərinə vicdanla yanaşmasını, məsuliyyətlərini və öhdəliklərini daha mükəmməl bir şəkildə icra etdiklərini vurğulamaq istərdim. Bəs, bunlar hansı meyarlarla ölçülür? Onları necə müəyyən etmək olar? Quru statistik rəqəmləri misal gətirmək istəmirəm, bunlar sizə məlumdur. Sadəcə, səhiyyə işçilərimizin bu günlər görünməyən, daha doğrusu, ictimaiyyətə məlum olmayan ağır və şərəfli əmək fəaliyyətini dilə gətirmək istəyirəm. Bayaq vicdan məsələsini elə - belə qeyd etmədim. Əvvəla, yaxşı həkimin, tibb işçisinin vicdanlı olmağının bəhrəsi ruhi sakitlikdir. Və düşünürəm ki, bu təyin təkcə həkimə yox, bütün bəşər övladına aid ola bilər: bir anlıq düşünün, ruhən özünü arxayın və əmin hiss edən adam vicdanı qarşısında necə ola bilər? Əlbəttə, bu məsələdə həkimlik sənəti üçün bir çox başqa amillər də tələb olunur: həkimin, ya bir tibb işçisinin, ya da elə orta səhiyyə işçisinin dürüstlüyü, mədəniyyəti və intellektual təfəkkürü olmalıdır ki, ona etibar eləsinlər, inansınlar. Yalnız bundan sonra onun nə dərəcədə həkimlik, yaxud tibb işçisi kimi vəzifə borcunu yerinə yetirərkən əxlaq prinsiplərinə necə riayət etməsindən danışmaq olar. Onun vicdanı qarşısında məsuliyyəti həm də bununla müəyyən edilir ki, peşəkarlığı hansı səviyyədədir, ona inanırlarmı, etibar edirlərmi?

Vicdan və ləyaqət məsələsi təkcə həkimin, yaxud səhiyyə işçisinin özündən asılı deyil, həm də çox vaxt dövlətin ona yaratmış olduğu şəraitdən asılı olur. Gəlin görək son illər dövlətimiz səhiyyə üçün, səhiyyə işçilərimiz üçün nələr edib? Fəxarət hissiylə bildirirəm: dövlət başçısı cənab İlham Əliyevin bilavasitə təşəbbüsü ilə səhiyyə sahəsində aparılan islahatlar təkcə Azərbaycanda deyil, dünyada da artıq yüksək qiymətləndirilir. Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə Bakıda keçirilən tədbirlərdə bu dəyərləndirmələr dəfələrlə səslənib və deyilib. Səhiyyəmizdə aparılan uğurlu islahatlar nəticəsində tibb müəssisələrinin maddi texniki bazası və kadr potensialı gücləndirilib, bütövlükdə səhiyyə sahəsində böyük nailiyyətlər əldə edilib. Müxtəlif səhiyyə müəssisələrinin, o cümlədən xəstəxanaların, müalicə-diaqnostika, reabilitasiya mərkəzlərinin, poliklinikaların inşası həyata keçirilib, səhiyyə ocaqları əsaslı təmir olunub və lazımi modern avadanlıqlarla təmin edilib. Bu sahədə inkişaf istər yeni tibb ocaqlarının inşasında, istər mövcud xəstəxana və tibb mərkəzlərinin bərpasında, istərsə də tibb müəssisələrinin ən müasir avadanlıqla təchiz edilməsində özünü daha qabarıq göstərir. Bütün bunlar sübut edir ki, Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin edilməsi istiqamətində icra olunan layihələri dövlət başçısı daim nəzarətdə saxlayır. Bu layihələr eyni zamanda vətəndaşımızın məhz ölkəmizdə yüksək səviyyəli tibbi xidmətlərdən yararlanması ilə bağlı görülən mühüm işlərin davamlı olduğunu göstərir. Onu da əlavə edim ki, səhiyyə işçilərimizin həyat və məişət şəraiti də xeyli yaxşılaşıb, bu sahədə də yeni-yeni addımlar atılmaqdadır.

Koronavirus (COVID-19) pandemiyasının yaratdığı kəskin dalğalanmalar, bizim ölkənin iqtisadiyyatına, iş ahənginə, eləcə də bütün sahələrə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncam və göstərişləri, habelə ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın gündəlik diqqət və qayğısı ilə bütün səhiyyə sisteminin səfərbər olunması bu bəladan bizim çox az zərərlə çıxacağımıza böyük inam yaradır.

Koronavirus pandemiyası başlayandan bu günə qədər dövlətimiz çox böyük tədbirlər həyata keçirib. Cənab Prezidentin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə bu yaxınlarda Bakı, Sumqayıt və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan üç modul tipli xəstəxananın açılışında karantin tədbirləri ilə bağlı səsləndirilən qiymətli fikirlər biz həkimləri də səfərbər edərək daha məsuliyyətli olmağa, eyni zamanda pandemiyaya qarşı mübarizədə qayda və qanunlara əməl etməyə çağırır.

Xalqımız dünyanı çənginə alan pandemiya dövründə bir daha əmin oldu ki, dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva üçün insanların sağlamlığı birmənalı qaydada tərəddüdsüz həmişə birinci yerdə olub. Cənab Prezident bir daha bəyan etdi ki, "şəxsən mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olub, o cümlədən pandemiya dövründə. Ona görə biz şüurlu şəkildə, bunun iqtisadi fəallığımıza mənfi təsir göstərəcəyini bilərək məhdudlaşdırıcı addımlara getdik. Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir. Əlbəttə ki, itkilərimiz də olub, amma bəzi ölkələrlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bu, onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur".

Bəli, cənab Prezidentin və hörmətli Birinci vitse-prezidentin xalq naminə atdıqları səmərəli addımlar nəticəsində COVID-19 virusuna qarşı önləyici tədbirlər həyata keçirilir, koronavirusla mübarizənin bazası gücləndirilir. Beynəlxalq aləmdə də Azərbaycanın koronavirusla bağlı mübarizə metodları təqdirlə qarşılanır. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı bu sahədə nümunəvi ölkə adlandırıb, özü də bir neçə dəfə.

Bunu da qeyd etməyi özümə borc bilirəm: dövlət başçısı fədakar peşə sahibləri olan həkimlərimizin əməyini də yüksək qiymətləndirir. Pandemiya ilə mübarizədə həkimlər ön xətdədir və tibbi personal dövlətin qayğısını hiss edir, onlar bu çətin günlərdə vətəndaşlarımızın sağlamlığı üçün çalışırlar. Xüsusilə həkimlərin fəaliyyətini, fədakarlığını qiymətləndirmək istərdim. Azərbaycan xalqı həkimlərin fədakarlığına çox yüksək qiymət verir. Mən də bir daha bütün həkimlərə minnətdarlığımı bildirmək istəyirəm. Onlar öz həyatlarını risk altına atırlar. Onlar aylarla öz ailə üzvlərini görə bilmirlər, çox ağır şəraitdə xüsusi geyimlərdə gecə-gündüz xəstələrin yanındadırlar, onların həyatını xilas edirlər. Bizdə ölüm səviyyəsinin çox aşağı olması, ilk növbədə, həkimlərin peşəkarlığı, səhiyyə işçilərimizin fədakarlığı hesabınadır. Bizdə yoluxanların sayı da o biri ölkələrə nisbətən çox azdır, çünki bizdəki yanaşma əvvəldən ən düzgün, ən humanist yanaşma oldu.

Buna görə də vətəndaşlarımıza bir daha müraciət etmək istəyirəm ki, pandemiyaya qarşı mübarizədə qayda və qanunlara əməl etsinlər, sağlamlıqlarını qorusunlar. Məsuliyyətli, nizam-intizamlı olsunlar. Xüsusi karantin rejimini pozmasınlar, vətəndaş həmrəyliyi göstərsinlər. Bu günlər hər bir vətəndaşımızın bunu dərk etməsi vacibdir. Bir məsuliyyətsiz adam yüz nəfəri yoluxdura bilər, onların və özünün həyatını risk altına atmış olar. Axı, bizim həkimlərimiz və tibb işçilərimizin həyatı da risk altındadır. Mən onların bu qorxulu xəstəliklə mübarizədə necə fədakarlıq nümayiş etdirdiklərinin də şahidiyəm. Orta tibb personalının, tibb bacılarının qısa müddət ərzində modern tibb ləvazimatlarından və cihazlarından istifadə etmək bacarıqları, heç nəyə baxmadan gecə-gündüz COVID-19 virusuna yoluxmuş vətəndaşlarımızın xidmətində durmaları, minlərlə riskli və ya yoluxmuş pasiyentin test yoxlamalarını aparmaları, laborator analizləri vaxtında və dəqiq yerinə yetirmələri sadəcə məndə heyrət doğurur! Mən onların bu vətənpərvərliyi və fədakarlığı qarşısında baş əyirəm.

Həkimin rolu ilk növbədə insanın həyat və sağlamlığı ilə əlaqədardır. Onun vəzifə borcundan savayı, vicdanı da, məsuliyyət hissi də məhz pasiyentə münasibətdə özünü büruzə verir, bütövlükdə isə səhiyyə işçilərinin həm öz həmkarlarına, həm də cəmiyyətə münasibətlərində özünü göstərir.

Fürsətdən istifadə edib bayram günündə bütün səhiyyə işçilərimizi təbrik edir, onlara son dərəcə ağır və yorulmaz fəaliyyətlərində dözüm, səbir və möhkəm iradə arzulayırıq!

***Rəşad MAHMUDOV,***
***Milli Məclisin deputatı***

# Azərbaycanın Xarici İşlər Nazirliyi Ermənistan XİN-in Şaumyan rayonu ilə bağlı bəyanatına cavab verib

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-ə açıqlamasında Ermənistan XİN-in Azərbaycanın keçmiş Şaumyan rayonu ilə bağlı bəyanatını şərh edib.

AZƏRTAC xəbər verir ki, Leyla Abdullayevanın açıqlamasında deyilir: "Ermənistan XİN-in Azərbaycanın keçmiş Şaumyan rayonunun guya ki, işğal olunmasına dair bəyanatı təcavüzkar Ermənistanın Azərbaycana qarşı olan əsassız ərazi iddialarının ölkəmizin hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonu ilə məhdudlaşmadığını aşkar şəkildə göstərir.

Azərbaycanın keçmiş Şaumyan rayonu ilk dəfə 1930-cu ildə keçmiş Gəncə qəzasının ərazisində əsasən ermənilərin məskunlaşdığı ərazilərin daxil olduğu Şaumyan kənd rayonu inzibati vahidi şəklində yaradılıb. Bu rayon heç vaxt keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olmayıb. 1991-ci ildə Azərbaycan Respublikasının Ali Sovetinin qərarı ilə rayon ləğv edilərək Qasım İsmayılov rayonunun tərkibinə daxil edilib, sonradan isə onun tarixi adı qaytarılaraq Goranboy adlandırılıb.

Ermənistan XİN-in Azərbaycanı öz beynəlxalq tanınmış ərazilərini işğal etməkdə ittiham etməsi gülünc olduğu qədər, yumşaq dillə desək anlaşılmazlıq doğurur. Xatırladırıq ki, hələ 2015-ci ildə Avropa İnsan Hüquqları Məhkəməsinin "Sarqsyan Azərbaycana qarşı" adlı qərarının 30-cu paraqrafında məhkəmə qeyd edib ki, keçmiş Şaumyan rayonunun (Goranboy) "DQR tərəfindən ərazisinin bir hissəsi olduğu iddia edilir...". Təqdim olunan dəlilləri nəzərdən keçirən məhkəmə 134 və 139-cu paraqraflarda müəyyən edib ki, bu rayon Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisidir və beləliklə, Ermənistanın iddiası rədd edilir.

Ermənistan XİN-in Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrinin hərbi işğalına, bu ərazilərdəki yüz minlərlə azərbaycanlının fundamental hüquqlarının pozuntusuna görə məhz Ermənistanın tam məsuliyyət daşıdığı məsələdən beynəlxalq ictimaiyyəti yayındırmaq məqsədilə verdiyi bu bəyanat işğalçı ölkənin faktların saxtalaşdırılması üzrə çirkin təcrübəsidir.

İşğalçı ölkənin bu bəyanatı Ermənistan rəhbərliyinin, əslində, öz əhalisini sülhə necə hazırladığını bütün dünyaya nümayiş etdirdi. Ümumilikdə qeyd etmək istərdim ki, Ermənistan XİN-in son bəyanatı onsuz da gərgin olan vəziyyətin daha da gərginləşməsinə yönəldilib. Onların bunu bilərəkdən, yaxud Ermənistan-Azərbaycan münaqişəsinin həlli kontekstində hazırda açıq-aydın təklikdə qaldıqları üçün çıxılmaz vəziyyətdən irəli gələrək etdiklərini söyləmək çətindir. Ermənistan tərəfini nəinki dünyada dəstəkləyən, hətta onların mövqeyinə anlayış göstərən nə bir dövlət, nə də bir qüvvə var.

Bəlkə də Ermənistan XİN-in son açıqlamasına öz ölkələrindəki mürəkkəb daxili vəziyyət təsir göstərib və bu yolla onlar öz xarakterlərinin ağırlığını göstərmək istəyirlər. Ancaq məntiqi o olardı ki, Ermənistan tərəfi bizimlə masa arxasında oturaraq, bütün səviyyələrdə dəfələrlə bəyan edilən təkliflər əsasında danışıqları yekunlaşdırsın".

## Milli maraqlar naminə əməkdaşlıq

# Müxalifət fəaliyyətini dövlətə və xalqa fayda vermək müstəvisində qurmalıdır

**Fəzail AĞAMALI: "Dialoqun başlaması Azərbaycanda yeni siyasi konfiqurasiyanın formalaşmasının əsas göstəricilərindən biridir"**

*Əvvəli 1-ci səh.*

Parlament seçkilərindən dərhal sonra həmin şöbənin müdiri Ədalət Vəliyevin həm Milli Məclisdə təmsil olunan, həm də təmsil olunmayan siyasi partiya rəhbərləri ilə görüşləri keçirildi. Bu görüşlərdə hər bir partiya rəhbəri ilə açıq və səmimi şəkildə müzakirələr aparıldı. Bununla da, əslində, iqtidarla parlamentdə və parlamentdən kənarda olan siyasi partiyalar arasında geniş miqyas daşıyan dialoqun əsası qoyuldu.

*- Dialoqdan söz düşmüşkən, siyasi sistemin komponentləri arasında yeni müzakirələrin başlamasını necə qiymətləndirirsiniz?*

- Siyasi dialoqun başlaması da Azərbaycanda yeni siyasi konfiqurasiyanın formalaşmasının əsas göstəricilərindən biridir. Əlbəttə, atılmış bu addımlar qeyd etdiyim kimi, respublikamızın siyasi mühitində, siyasi-ictimai proseslərdə partiyaların yerinin və rolunun artırılmasına xidmət edən mühüm amildir. Tamamilə əminəm ki, yaxın gələcəkdə bu prosesin daha böyük müsbət nəticələrini görəcəyik.

Siyasi partiya rəhbərləri ilə görüşə dəvət olunanlardan biri də mən idim. Format ayrı-ayrı partiyaların rəhbərləri ilə birlikdə deyil, ayrı-ayrı görüşün keçirilməsi idi. Düşünürəm ki, bu, yeni dialoqda olduqca düzgün yanaşma idi. Çünki hər bir partiyanın özünün iqtidarla bu və ya digər münasibətlərinə aydınlıq gətirilməli idi. Əlaqələrin qarşılıqlı olaraq həyata keçirilməsi üçün fərdi söhbət və müzakirələrin aparılması daha doğru idi.

Beləliklə, artıq partiyalarla dialoqun aparılması prosesi başlayıb. Ölkəmizdə fəaliyyət göstərən və dəvət olunan əksər siyasi partiyalar bu dialoqa müsbət münasibət bildirdilər.

*- Fəzail müəllim, ümumiyyətlə, yeniləşən siyasi sistemdə müxalifət öz fəaliyyətini necə qurmalıdır? Müxalif siyasi partiyaların təkmilləşməsinə ehtiyac duyulurmu?*

- Çox təəssüf edirəm ki, bizdə siyasi proseslərə fərqi yanaşmalar var. Demokratik dövlətçiliyə uyğun olaraq ölkəmizdə siyasi sistemdə iki tərəf var. Bir tərəfdə xalqın etimad göstərdiyi iqtidar, seçki yolu ilə hakimiyyətə gələn partiya və onun rəhbəri var. Yeni Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev xalqın yüksək etimadını qazanaraq ölkəyə rəhbərlik edir. İlham Əliyevin yaratdığı iqtidar komandası Konstitusiya ilə üzərinə düşən vəzifəni yerinə yetirir və dövləti idarəetmə məsuliyyəti də onun üzərindədir.

Digər tərəfdə isə siyasi proseslərdə iştirak edən, lakin seçkilərdə uduzan müxalifət var. Bu müxalifət mövqeyində dayananlar da məsuliyyət daşıyırlar. Onlar da müxalifət olaraq fəaliyyətlərini bu çərçivədə, dövlətə və xalqa fayda vermək müstəvisində qurmalıdırlar. Təbii ki, müxalifət iqtidarın fəaliyyətini ciddi şəkildə izləməli və müşahidə etməlidir. Dövlətin idarəçiliyi, ölkənin yüksəlişi ilə bağlı əldə edilən uğurlar etiraf olunmalıdır. Bunun üstündən heç bir vəchlə xətt çəkmək olmaz. Bununla yanaşı, müxalifət səhv və nöqsanların üzərində dayanmalıdır. Amma bu zaman qərəzli, qeyri-obyektivlik istisna olunur. Həmin nöqsan və səhvlər konstruktiv şəkildə, dövlətçilik mövqeyindən önə çəkilməli, ictimailəşdirilməli, iqtidarın diqqətinə çatdırılmalıdır. İqtidar da müxalifətin göstərdiyi səhv və nöqsanların aradan qaldırılması üçün addımlarını atmalıdır. Beləliklə, bu kimi siyasi əlaqələr cəmiyyətin yüksəlişinə, ölkənin inkişafına xidmət edir.

İndi müxalifət çoxqütblüdür. Parlamentdə təmsil olunan və təmsil olunmayan siyasi partiyaların xeyli hissəsi dediyimiz konstruktiv mövqedə özünü ifadə etməkdədir. Deyərdim ki, bu baxımdan müxalifət öz fəaliyyətinin ilkin və başlanğıc mərhələsindədir. Gələcəkdə onların mövqeyinin möhkəmlənməsi tamamilə mümkündür.

*- Lakin özünü sağlam siyasi proseslərdən təcrid edən, marginallaşan radikal müxalif partiyalar tamamilə fərqli fəaliyyət nümayiş etdirirlər...*

- İnkarçılıq və qərəzçilik mövqeyində duran, ayrı-ayrı antiazərbaycançı dairələrdə yer alan partiyaların Azərbaycanın siyasi mühitindən getməsi və silinməsi, tarixin arxivinə gömülməsi qaçılmazdır. Bu birmənalıdır. Çünki Azərbaycan cəmiyyətinin indiki inkişaf səviyyəsi radikallığı, barışmazlığı, anarxiyanı, özbaşınalığı qəbul etmir, bütün siyasi partiyaların sivil müstəvi üzərində fəaliyyətinə üstünlük verir və hər kəs üçün respublikamızda sabitliyin qorunub saxlanılması, dövlətçiliyimizin möhkəmlənməsi son dərəcə vacibdir. Bu baxımdan dediyim kimi dövlətə və xalqa xidmət edən siyasi partiyaların, - fərqi yoxdur, iqtidar və ya müxalifət olsun, - Azərbaycanın siyasi mühitində yeri və rolu daim olacaq. Əks mövqedə duranlar isə Azərbaycanın siyasi həyatından silinəcəklər.

Məlum olduğu kimi, hakimiyyətin dialoq təşəbbüsündən qaçanlardan biri Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimli oldu. Bu, bir daha onun antiazərbaycançı şəbəkədə yer aldığını, anarxist mövqedə olduğunu, milli dövlətçiliyimizə zərbə vurmağı öz fəaliyyətində prioritet götürdüyünü, ölkəmizdə xaosun yaranmasında maraqlı olduğunu sübut etmiş oldu. Həmin adam bir daha özünün antimilli mahiyyətini ortaya qoydu və bəlli oldu ki, Ə.Kərimliyə onu idarəedənlər tərəfindən bu dialoqda iştirak etmək qadağan edilib.

Bütün fəaliyyətini AXCP ilə sinxron şəkildə quran Müsavat partiyasının rəhbərliyi də Ə.Kərimlinin yolu ilə getdi. Öz fəaliyyətini onunla sinxronlaşdırdı və müxtəlif bəhanələrlə bu dialoqdan imtina etdi. Düşünürəm ki, bununla da Müsavat partiyası özü-özünə ən böyük zərbələrdən birini vurdu. Müsavat da özünütəcrid rejiminə keçməklə normal siyasi-ictimai proseslərdən uzaq olmaq yolunu tutdu. Beləliklə, həmin partiyaların sivil fəaliyyət metodlarından, sağlam müxalifətçilikdən uzaq olduqları bir daha təsdiqləndi.

Sanki AXCP ilə Müsavat arasında kim daha çox radikaldır, kim daha çox barışmazdır deyə bir yarışma var. Lakin bu yarışmanın perspektivi yoxdur. Çünki partiyanın gücü onun sosial dayaqlarında və sivil şəkildə siyasi proseslərdə iştirakındadır. Əgər bir partiya cəmiyyət tərəfindən qəbul olunmursa, sosial dayaqları yoxdursa və fəaliyyətini antimilli məcrada qurursa, deməli o, heç bir siyasi uğur qazanmaq imkanında deyil. Bu baxımdan sözügedən partiyaların dialoqdan imtina etməsi, yeni siyasi konfiqurasiyada yer almamaları onların itkisi kimi qiymətləndirilməlidir.



*- Bir qədər əvvəl müxalifətin parlamentdə təmsil olunmasından danışdınız. İstərdik ki, bu barədə ətraflı danışasınız və xüsusən müxalifətə qanunverici orqanda yaradılan şəraitlə bağlı fikirləriniz maraqlıdır.*

- Əvvəlki dövrlərdə də parlamentdə təmsil olunan siyasi partiyaların təmsilçilərinin Milli Məclisdə öz fikirlərini ifadə etmələrinə, fərqli rəylərlə çıxışlarına hər hansı məhdudiyyət qoyulmayıb. Lakin indi, əvvəl qeyd etdiyim kimi, yeni siyasi mühit formalaşıb. Əlbəttə, belə bir şəraitdə siyasi partiyaların təmsilçiləri təkcə parlamentdə təmsil olunmaqla kifayətlənmirlər. Onlar eyni zamanda qanunvericilik təşəbbüsündə, qanun layihələrinin işlənib hazırlanmasında yeni imkanlar qazanıblar.

Son parlament seçkilərindən sonra Milli Məclisdə yer alan müxalifət təmsilçiləri sədr müavini, komitə sədri, komitə sədrinin müavinləri səviyyəsində rəhbər vəzifələrə layiq görüldülər. Bununla da siyasi sistemdə yeni konfiqurasiyanın formalaşması istiqamətində mühüm addımlar atıldı. Milli Məclisdə siyasi partiyaların yerinin və rolunun əməli və praktiki baxımdan gücləndirilməsi ölkəmizin siyasi həyatının ən mühüm hadisələrindən biridir. Bütün bunlar həm də siyasi partiyaların öz gələcək fəaliyyətlərinin məhz bu cür siyasi konfiqurasiya üzərində qurması üçün çox mühüm zəmindir.

*- Son vaxtların əsas hadisələrindən biri də ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində aparılan tədbirlərin gücləndirilməsidir. Bütün bunları siz necə qiymətləndirirsiniz?*

- Prezident İlham Əliyevin apardığı islahatlara mane olan, dövlətçiliyimizin immunitetinin zəifləməsinə yol açan korrupsiya və rüşvətxorluğa qarşı uğurlu mübarizə tədbirlərinin həyata keçirilməsi cəmiyyətimiz tərəfindən təqdir olunur. Mənim fikrimcə, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi islahatların içərisində yer alan xüsusi bir xətdir. Ölkə Prezidenti 2019-cu ildən sonra formalaşdırdığı yeni komandanın təyinatında, altıncı çağırış Milli Məclisin ilk iclasındakı çıxışında, eyni zamanda müşavirə və tədbirlərdə söylədiyi nitqlərində korrupsiya və rüşvətxorluğa qarşı ciddi, barışmaz və sistemli mübarizə aparmağın vacibliyini qeyd edib.

Dövlət başçısının söylədiyi bu fikirlər yaxın keçmişimizdə, son aylarda konkret addımlarla təsbit edildi. Bir neçə rayonun icra hakimiyyətinin başçısının, Mədəniyyət Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin vəzifəli şəxslərinin korrupsiya hallarında şübhəli bilinərək həbs olunması dediklərimə misaldır. Heç kim düşünməsin ki, bu, sadəcə olaraq, adi bir haldır və ya bəzilərinin iddia etdiyi kimi, görüntüdür. Qətiyyən belə deyil. Bu, sistemli xarakter daşıyan, Azərbaycan dövlətinin güclənməsinə, onun immunitetinin daha da möhkəmlənməsinə, cəmiyyətimizin yüksəlişinə xidmət edən son dərəcə mühüm siyasi iradədir. Bu baxımdan biz xoşagəlməz və neqativ hallara qarşı Prezident İlham Əliyevin qətiyyətini görməkdəyik. Təyin olunan bütün yeni icra hakimiyyəti başçıları ilə videoformat şəklində qəbul zamanı korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin bundan sonra da ciddi surətdə aparılacağı Prezident İlham Əliyev tərəfindən önə çəkilməkdədir. Başqa cür ola da bilməz. Çünki islahatların effektivliyinə ciddi zərbə vuran korrupsiya və rüşvətxorluğa son qoymadan daha əhəmiyyətli nəticələr gözləmək olmaz. Bunlar biri digəri ilə bağlı olduğu üçün, sona qədər neqativ hallara qarşı ölkəmizdə mübarizə davam etdiriləcək.

*- Azərbaycanın əsas reallıqlarından biri də Prezident İlham Əliyevin müəllifi olduğu sosial-iqtisadi islahatlar konsepsiyasının uğurlu nəticələridir, qeyri-neft sektorunda əldə olunan nailiyyətlərdir. Son dövrdə digər sahələrə paralel olaraq yeni keyfiyyət mərhələsinə qədəm qoyan sosial-iqtisadi islahatlarla bağlı nə deyə bilərsiniz?*

- Sosial-iqtisadi sferada ölkə Prezidentinin apardığı indiki ardıcıl və sistemli fəaliyyət 2003-cü ildən başlayır. Cənab İlham Əliyev həmin ildə Prezident seçildikdən sonra dərhal regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı olduqca mühüm qərarlar verdi, sənədlər imzaladı. Bütün şəhər və rayonların, kənd və qəsəbələrin, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı Prezident İlham Əliyevin fəaliyyətində başlıca prioritetdir.

Son 17 ildə xeyli dərəcədə uğurların əldə edildiyi göz önündədir. Azərbaycanın regionlarında sosial obyektlərin yenilənməsi, müasir standartlar səviyyəsində yüzlərlə məktəblərin, uşaq bağçalarının, xəstəxanaların, idman komplekslərinin tikilməsi, bütün sahələr üzrə yeni infrastrukturun yaradılması, o cümlədən nəqliyyat infrastrukturunun tamamilə yenidən qurulması, turizmin inkişafı ölkəmizin inkişaf reallıqlarıdır. Eyni zamanda bu dövrdə Azərbaycan iqtisadiyyatı tamamilə yenidən formalaşıb, ölkəmizin ixrac potensialı yüksəlib, iqtisadi sferada qeyri-neft sektorunun payı əhəmiyyətli dərəcədə artıb. İqtisadi inkişaf nəticəsində ölkədə məşğulluq təmin olunub, yoxsulluğun səviyyəsi dəfələrlə azalıb.

Azərbaycanın iqtisadi inkişafının əsas göstəricilərindən biri də bir sıra şəhər və rayonların büdcədən maliyyələşməsinin dayandırılmasıdır. Artıq 40-a yaxın şəhər və rayon öz daxili imkanları hesabına yerli büdcələrini formalaşdırmaq imkanındadır. Bu tendensiya davam edir və ildən-ilə belə rayonların sayı artır.

Əgər Prezident İlham Əliyevin atdığı addımlar olmasaydı, biz bu gün qeyd edilən uğurlar barəsində danışa bilməzdik. Bütün bunlar olduqca ciddi inkişaf nümunələri, Azərbaycanın keçdiyi inkişaf yolunun göstəriciləridir. Ümumilikdə görünən odur ki, dövlət başçısının yürütdüyü siyasət respublikamızın inkişafına, insanların rifahına və dövlətimizin beynəlxalq mövqelərinin möhkəmlənməsinə uğurla xidmət edir.

***Müsahibəni yazdı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan koronavirusla qətiyyətli mübarizə aparır

## İlham Əliyevin müdrik rəhbərliyi ilə xalqımız bu sınaqdan layiqincə çıxacaq

*Əvvəli 1-ci səh.*

Həmin ölkələrin bir qismi Azərbaycanın sədri olduğu Qoşulmama Hərəkatının üzvüdür. Beləliklə, bütün dünya üçün önəmli vaxtda Azərbaycan əsl liderlik nümunəsi ortaya qoydu. Dünyada ikinci bir dövlət tapmaq çətindir ki, pandemiya dövründə Azərbaycan qədər humanitar yardım göstərsin.

Azərbaycanla bağlı başqa bir mühüm məqam isə koronavirusa yoluxanların hamısının dövlətin hesabına xəstəxana şəraitində müalicə olunmasıdır. Bu da birinci növbədə respublikamızın səhiyyə infrastrukturunun malik olduğu böyük potensialın təsdiqidir. İnformasiyalara görə hətta inkişaf etmiş dövlətlərdə belə infeksiyaya yoluxmuş xəstələrin müalicəsində ciddi çətinliklər mövcuddur və onların heç də hamısını xəstəxanaya qəbul etmək mümkün olmadı. Azərbaycanda isə vəziyyət tamamilə fərqlidir. Çünki son 17 ildə Azərbaycanda özünü göstərən inkişaf səhiyyə sistemindən də yan ötməyib. Ölkənin bütün şəhər və rayonlarında səhiyyə müəssisələri tamamilə yenidən qurularaq müasir tibbi avadanlıqlarla təmin olunub. Əksər şəhər və rayonlarda yeni diaqnostika mərkəzləri yaradılaraq insanların istifadəsinə verilib. Bu baxımdan virusun hələ də yayıldığı indiki dövrdə Azərbaycan səhiyyəsinin xəstələrin müalicəsi baxımından heç bir çətinliyi yoxdur. Üstəlik, virus ölkəmizdə qeydə alındıqdan sonra yeni laboratoriyaların alınması, o cümlədən modul tipli xəstəxanaların yaradılması Azərbaycan Prezidenti İlham Əliyevin vətəndaşların sağlamlığına olan yüksək diqqətinin göstəricisidir. Bütövlükdə, hazırda Azərbaycanda mövcud səhiyyə imkanları vəziyyəti nəzarət altında saxlamağa imkan verir.

### Ən böyük uğur xalqımızın nümayiş etdirdiyi həmrəylikdir

Prezident İlham Əliyevin pandemiya dövrünün çağırışlarına uyğun düşünülmüş siyasəti nəticəsində Azərbaycan sənaye imkanlarını genişləndirdi, qısa müddət ərzində tibbi maska istehsalı müəssisələri fəaliyyətə başladı. İndi respublikamızda qoruyucu maskalar, dezinfeksiya vasitələri, həkimlər üçün xüsusi geyimlər, kombinezonlar istehsal olunur. Bununla da ölkəmizdə sözügedən məhsullara olan xarici asılılıq aradan qaldırıldı.

Azərbaycan Prezidentinin siyasi kursunun ən böyük uğuru isə xalqımızın bu çətin dövrdə nümayiş etdirdiyi birlik və həmrəylikdir. Bu birliyi və həmrəyliyi bir çox sahələr üzrə göstərmək olar. Prezident İlham Əliyevin epidemiya dövründə iqtisadiyyatın zərər çəkməməsi, həmçinin vətəndaşların sosial rifahının yaxşılaşdırılması istiqamətində verdiyi qərarların bütün cəmiyyətimiz tərəfindən təqdir olunması, Koronavirusla Mübarizəyə Dəstək Fonduna yığılmış məbləğin 100 milyon manatı ötməsi, dövlət qurumlarının və özəl sektorun nümayəndələrinin adi vətəndaşlara koronavirus dövründə dəstək göstərmələri xalqımızın öz rəhbəri ətrafında sıx səfərbər olmasının, milli birliyin və həmrəyliyin ayrı-ayrı nümunələridir. Bütün bunlar bir daha göstərir ki, xalqımız ən çətin günlərdə birləşə və milli iradə nümayiş etdirə bilir.



Beynəlxalq aləmdə Azərbaycanın koronavirusla bağlı mübarizə metodları təqdirlə qarşılanır. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı bir neçə dəfə bu sahədə nümunəvi ölkə adlandırıb. Digər beynəlxalq təşkilatlar respublikamızda pandemiya dövründə görülən işlərə yüksək qiymət veriblər. Bütövlükdə, görünən odur ki, Azərbaycan dövləti koronavirusla uğurlu və qətiyyətli mübarizə aparır və Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə xalqımız bu sınaqdan layiqincə çıxacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Pandemiyaya qarşı düzgün strategiya

## Virusun ölüm zəncirini qırmaq üçün küçələri kimsəsiz qoyaraq evlərimizə çəkildik...

*Əvvəli 1-ci səh.*

Məhdudiyyətləri aradan qaldıran ölkələrin sayı artdıqca, COVID-19-un yenidən alovlanması təhlükəsi yaranır. Hazırda vəziyyət ilin əvvəli ilə müqayisədə heç də yaxşı deyil. Bizim hələ də COVID-19-la mübarizə ilə bağlı nə peyvəndimiz, nə də müalicə üsulumuz var".

### Koronavirus xəstəliyi ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyət təhlil edilir

Yumşalmalar ərəfəsində müəyyən qaydalara əməl edilməməsi səbəbindən ölkəmizdə də yoluxma sayında artımın müşahidə olunması bunu təsdiqləyir.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) koronavirusla bağlı iyunun 15-nə olan statistik göstəricilərinə əsasən Azərbaycanda hazırda reanimasiyada olan koronavirus xəstələrinin sayı 132, süni tənəffüs cihazına qoşulan koronavirus xəstələrinin sayı isə 30 nəfərdir. Hazırda xüsusi rejimli xəstəxanalarda müalicə olunan aktiv xəstə sayı 4 463 nəfərdir. İndiyə qədər ölkəmizdə koronavirusa yoluxanların sayı 10 324, sağalanların sayı 5 739, ölənlərin sayı isə 122 nəfərə çatıb.

Bütün bu göstəricilərə əsasən də yeni növ koronavirus xəstəliyi ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyət təhlil edilmiş və xəstəliyin yayılma dinamikası nəzərə alınaraq ölkə üzrə xüsusi karantin rejiminin 1 iyul 2020-ci il saat 00:00-dək uzadılmasına qərar verilib.

Ölkə üzrə sanitar-epidemioloji vəziyyətin təhlilinə görə son günlər Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında yüksək yoluxma faktları aşkar edilmişdir. Bu baxımdan COVID-19 virusunun yayılma sürətinin azaldılması, eləcə də onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərinin, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının ərazisində sərtləşdirilmiş karantin rejimi tətbiq edildi.

Bu ərazilərdə bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırılır (xüsusi təyinatlı, qəzabərpa, təcili tibbi yardım avtomobillərinin və fəaliyyətinə icazə verilən orqanların (qurumların) və təşkilatların xidməti, həmçinin onların əməkdaşlarına məxsus şəxsi avtomobillərin, eyni zamanda yaxın qohumlarının dəfnində iştirakla əlaqədar vətəndaşların şəxsi avtomobillərinin hərəkəti istisna olmaqla);

Bu müddətdə əhalinin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edilir.

Xüsusi karantin rejiminin tələblərinin pozulmasına görə fiziki, hüquqi və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada inzibati və cinayət məsuliyyəti daşıyır.

### Karantin tətbiq olunmayan rayonlara təhlükəli turist axını

Həmçinin mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq digər günlərdə 65 yaşdan yuxarı insanların ciddi zərurət olmadan yaşayış yerlərindən və ya olduğu yerlərdən çıxmamaları tövsiyə olunur. Eyni zamanda kütləvi yoluxma hallarının qarşısının alınması məqsədilə xüsusi karantin rejimi müddətində respublika üzrə ictimai yerlərdə, bulvarlarda və parklarda, ictimai iaşə obyektlərində insanların bir yerdə 10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağasına, qoruyucu vasitələrdən istifadə edilməsi qaydalarına ciddi əməl olunması tələb edilir.

Operativ Qərargahın xüsusi karantin rejiminin müəyyən günlərdə sərtləşdirilməsi qərarı koronavirusun yayılma sürətinin azaldılmasından, onun törədə biləcəyi fəsadların minimuma endirilməsindən irəli gəlib. Bu qərardakı məhdudlaşdırıcı mahiyyət ümumi xarakterli olmaqla təhlükəli virusdan müdafiədə effektivliyi artırmaq, əhalini qorumaq, mümkün qədər çox insanın evdə qalmasını təmin etmək məqsədi daşıyır.

Amma ötən iki gün ərzində gücləndirilmiş karantin rejiminin tətbiq olunmadığı rayonlara turist axınının şahidi olduq.

Xüsusilə Quba və Şamaxı minlərlə turistin səfər etdiyi rayonlardan oldu. Ötən cümə və şənbə günlərində Bakıdan Qubaya doğru minlərlə avtomobil yola çıxıb ki, bu da Bakıdan Qubaya qədər gecə saatlarınadək bütün yolda tıxac yaranmasına səbəb olub. Bu isə təbii ki, təhlükəli haldır. Çünki hansısa bölgəmizə birdən-birə minlərlə insanın axın etməsi koronavirus təhlükəsinin həmin ərazidə də geniş yayılmasına rəvac verir. Həm də yerli sakinlərin sözlərinə görə, gələn turistlər karantin qaydalarına əməl etmir, sosial məsafəni qorumur, tibbi maskalardan istifadə etmirlər.

### Koronavirusun alovlanmaması üçün qayda pozulmamalıdır

Bu bir reallıqdır ki, pandemiya ilə mübarizə strategiyasını düzgün müəyyənləşdirən dövlətlər minimum itkiyə məruz qalıblar, vətəndaşların rifahı və sağlamlığının qorunmasına mümkün qədər nail olmağı bacarıblar. Azərbaycan da belə nümunəvi ölkələrdəndir.

Amma təhlükə sovuşmayıb və insanların həyatını, sağlamlığını təhdid etməkdə davam edir. Hökumətimiz tərəfindən virusa qarşı həyata keçirilən tədbirlərin səmərəli və effektiv olması isə həm də hər bir vətəndaşın şəxsi məsuliyyətinə bağlıdır. Hər kəs ictimai nəqliyyatda, ofislərdə, alış-veriş mərkəzlərində və digər yerlərdə maskadan istifadə etməli, məsafə saxlamalı, şəxsi gigiyena qaydalarına riayət etməlidir. Təbii ki, cəmiyyətimizin böyük əksəriyyəti məsuliyyət, nizam-intizam göstərir. Karantin günlərində qayda pozuntularının o qədər də çox olmaması buna bariz nümunədir. Lakin infeksiyanın yayılmasında bir nəfərin belə böyük rol oynadığını nəzərə aldıqda cüzi qayda pozuntusu da çox sayılır. Koronavirusun alovlanmaması üçün bir nəfər belə qayda pozmamalıdır. Buna görə də vətəndaşlarımız daha məsuliyyətli olmalı, nizam-intizama riayət etməlidirlər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***


## AMEA akademik Y.Məmmədəliyev adına Neft-kimya prosesləri İnstitutu

### *açıq tender elan edir*

Tender 3 LOT üzrə keçirilir.

LOT 1 - Elmi-tədqiqat işləri üzrə təcrübə və təcrübə sınaq işləri

LOT 2 - Maye helium-400 litr (4 dəfə 100 litr)

LOT 3 - Elmi-tədqiqat işləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Az 1025 , Bakı şəh., Xocalı pr.30 ünvanından ala bilərlər.

Əlaqələndirici şəxs: Paşayeva Mehriban İsmayıl qızı

Əlaqə nömrəsi: 012-490-13-29

İştirak haqqı hər LOT üzrə 100 (bir yüz) manat

Bank rekvizitləri:

**Az 1025 , Bakı şəh., Xocalı pr.30**
**VÖEN: 2000146301**
**Hesab №: AZ78CTRE00000000000004137901**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M\h №: AZ41NABZ01360100000000003944**
**SWIFT BİK: CTREAZ22**
**Büdcə təsnifatının kodu - 142319**
**Büdcə səviyyəsinin kodu - 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az). İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 15 iyul 2020-cu il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 22 iyul 2020-cu il saat 16:00-a qədər Az 1025 , Bakı şəh., Xocalı pr.30 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 23 iyul 2020-ci il saat 14:00-da Bakı şəh., Xocalı pr.30 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

### *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində satınalma fəaliyyətinin (büdcə təşkilatları üçün) avtomatlaşdırılması məqsədilə proqram təminatının hazırlanması işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT üzrə 200 (iki yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank : Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri-notarial qaydada təsdiq olunmuş;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış (16.06.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışları qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti-2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (16.06.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);*
- *iddiaçının ixtisaslı işçi heyəti barədə məlumatlar (CV-lər əlavə olunmaqla);*
- *bənzər işlərdə təcrübəsi barədə müqavilələr və görülmüş işlər barədə təsdiqedici sənədlər təqdim olunmalıdır.*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 09.07.2020-ci il saat 15:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 17.07.2020-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 20.07.2020-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 14 fevral 2020-ci il tarixli sayında dərc edilmiş və Dövlət satınalmalarının vahid internet Portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmalarda (eTender) Elektrik tənzimləyiciləri üçün təmir materiallarının satın alınması üzrə "Sinerji Proje Yönetimi Elektrik Elektronik Ve Sağlık Teknolojileri Dış Ticaret Limited" Şirkətinin Azərbaycan Respublikasındakı filialı qalib olmuşdur.

Qalib şirkətlə 08 iyun 2020-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan



Respublikasının Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## 17 iyun Azərbaycanda Tibb İşçilərinin Peşə Bayramı Günüdür

# Günümüzün fədakarları

Əvvəli 1-ci səh.

Bu günün rəmzi mənası işığında diqqət səhiyyə mədəniyyəti məsələlərinə yönəlir. Bu sahədə maarifləndirmə işləri aparılır. İnsanların təbabətə, tibb işçilərinə ictimai etimadı yüksəlir. Hər birimizin həyat və sağlamlığı naminə bunlar çox önəmlidir.

Bütün dünyanın COVID-19 pandemiyası ilə gərgin mübarizə apardığı indiki günlərdə səhiyyə ilə bağlı sosial məsuliyyətin, maarifləndirmə işlərinin dövlət üçün də, xalq üçün də nə qədər böyük önəm daşıdığına hamımız şahidik. İnsanların təhlükəli xəstəlikdən, həyatını itirmə riskindən qorunması naminə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl tədbirlərin icrasında, əldə olunan müsbət nəticələrdə fədakar tibb işçilərinin böyük rolu var. Bunu Azərbaycan Prezidenti də tibb işçiləri ilə görüşlərində böyük rəğbət hissi ilə dilə gətirir: "Xüsusilə həkimlərin fəaliyyətini, fədakarlığını qiymətləndirmək istərdim. Azərbaycan xalqı həkimlərin fədakarlığına çox yüksək qiymət verir. Mən də bir daha bütün həkimlərə minnətdarlığımı bildirmək istəyirəm. Onlar öz həyatlarını risk altına atırlar. Onlar aylarla öz ailə üzvlərini görə bilmirlər və çox ağır şəraitdə xüsusi geyimlərdə gecə-gündüz xəstələrin yanındadırlar, onların həyatını xilas edirlər. Bizdə ölüm səviyyəsinin çox aşağı olması, ilk növbədə, həkimlərin peşəkarlığı, fədakarlığı hesabınadır".

Azərbaycan Prezidentinin 18 mart 2020-ci ildə imzaladığı koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair sərəncamı, onların əməkhaqlarının artırılması ölkəmizdə pandemiyaya qarşı gərgin mübarizə aparan tibb işçilərinin fədakar əməyinə yüksək qiymətin ifadəsidir.

### Nadir praktika

Azərbaycan dünya miqyasında koronavirus xəstələrinin müalicəsi ilə bağlı fərqli və daha effektiv praktika tətbiq edən nadir ölkələrdəndir. Burada koronavirusa yoluxan bütün xəstələr məhz tibbi müəssisələrdə, xüsusi şəraitdə, peşəkar tibbi personalın əhatəsində müalicə alırlar. Dünya praktikası isə tam başqadır. Bir çox ölkələrdə xəstəliyi simptomsuz keçirənlər, bu bəlaya düçar olmuş insanlar ev şəraitində müalicə alırlar. Onları heç xəstəxanalara da qəbul etmirlər. Bu isə təhlükəli virusun öz əhatəsini yeni xəstələr hesabına daha da genişləndirməsinə gətirib çıxarır. Xəstəxanalardan kənarda qalan hər xəstə onlara başqa insanın da sağlamlığını təhlükə altına salır.



Əlbəttə, digər ölkələrdə bu virusa yoluxanların xəstəxanalara qəbul edilməməsi belə yanaşmanın effektivliyi ilə deyil, sadəcə olaraq çarəsizliklə bağlıdır. Heç də hər ölkə - hətta səhiyyə sistemi kifayət qədər inkişaf etmiş ölkələr belə bütün koronavirus xəstələrinin tibb müəssisələrində müalicəsi üçün lazımi imkanlara malik deyildir. Bir çox yerlərdə səhiyyə sisteminin inkişafında dövlət öz rolunu məhdudlaşdırdığından, insanların həyat və sağlamlığı əsasən özəl sektorun ixtiyarına buraxılıb. Belə ki, indiki böhranlı durumda xəstəxanalarda çarpayı çatışmazlığı var. Mövcud infrastruktur kifayət etmir. Çünki səhiyyə sistemində özəl sektorun geniş iştirakı hər nə qədər mütərəqqi hal olsa da, bu sektorun əsas məramı mümkün qədər az resurslar xərcləməklə çox mənfəət götürməkdir. Bu sahədə iş qurmuş, özəl klinikalar yaratmış adamlar belə böhran anlarına hazırlıq haqqında düşünə bilməzdilər. Bu cür vəziyyətlərin idarə olunmasına onlar öz məsuliyyət dairələrindən kənar məsələ kimi baxırlar. Ona görə də inkişaf etmiş bir çox xarici ölkələrdə insanların ölüm halları çox yüksək oldu. Heç kimin gözləmədiyi pandemiya dalğası həmin ölkələrin səhiyyə sistemini qısa zamanda çökdürdü. Ağır xəstələri qəbul edə bilmədilər. Beləliklə, kütləvi ölüm halları baş verdi.

Azərbaycan isə vəziyyəti ona görə hazırlıqlı qarşılaya bildi ki, burada dövlət cəmiyyət üçün digər əhəmiyyətli sahələr kimi, səhiyyə sisteminin inkişafına da daimi dəstək verir.

### Pandemiyaya qarşı mübarizədə Azərbaycan modeli

Bunun nəticəsidir ki, son illərdə Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində paytaxt Bakıda və bölgələrdə müasir tibb mərkəzləri açılıb. Köhnə tibb müəssisələri yenidən bərpa olunaraq müasir avadanlıqlarla təmin olunub. Səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülüb və görülməkdədir. Dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsait ildən-ilə artırılır. Bu da tibb müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasına, ümumilikdə tibbi xidmətin müasir tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açır.

Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan genişmiqyaslı islahatlar milli səhiyyə sistemimizi sürətlə müasirləşdirir, vətəndaşlarımız dövlətin yaratdığı tibbi xidmətlərdən yüksək səviyyədə yararlana bilirlər. Səhiyyə sistemində aparılan islahatlar onların sağlamlığının etibarlı təminatına xidmət edir.

Məhz son illərdə bu sahədə görülmüş işlər, yaradılmış geniş imkanlar hesabına Azərbaycan koronavirus pandemiyası ilə bağlı böhranlı durumu kifayət qədər hazırlıqlı qarşılaya və bu xəstəliklə mübarizə işində öz modelini ortaya qoya bildi. Reallıq bundan ibarətdir ki, Azərbaycan pandemiyadan ən az insan itkisinə məruz qalmış ölkələrdən biridir. Bu da onunla bağlıdır ki, xəstəliyə yoluxmuş bütün insanlar tibbi müəssisələrə qəbul edilir, onlara lazımi xidmət göstərilir. Xəstəliyin vaxtında üzə çıxarılması, daha geniş əhatədə yayılmaması üçün kütləvi testləşdirmə işi aparılır.

Eyni zamanda dövlət fəaliyyətini bir neçə konkret addımla məhdudlaşdırmır. Qabaqlayıcı tədbirlər sistemli, ardıcıl və çoxşaxəli şəkildə aparılır ki, ölkəmiz ən çətin vəziyyətlərə belə hazır olsun. Bu məqsədlə Bakıda və regionlarda modul tipli xəstəxanalar yaradılır. Artıq 4 modul tipli xəstəxana istifadəyə verilib. Azərbaycan Prezidentinin qarşıya qoyduğu strateji vəzifələrə uyğun olaraq həmin xəstəxanaların sayı iyunun sonuna qədər 10-a çatdırılmalıdır. Bu xəstəxanaların hesabına əlavə iki min çarpayı yeri yaranacaq.

### "İnam olan yerdə nəticə də olur"

Koronavirus xəstələrinin müalicəsi ölkəmizin ən qabaqcıl xəstəxanalarında aparılır. Yenicə istifadəyə verilmiş "Yeni klinika" da daxil olmaqla hazırda Azərbaycanda 20-dən çox xəstəxana sırf bu məqsədlə ayrılıb. Pandemiya ilə mübarizə işinin tərkib hissəsi kimi yeni laboratoriyalar alınıb. Hazırda belə laboratoriyaların sayı 20-dən çoxdur.

Karantin rejimində saxlanan vətəndaşlar üçün də ölkəmizdə bütün dünya üzrə nümunəvi şərait yaradılıb. Onlar əsasən 4-5 ulduzlu hotellərdə, eyni zamanda Atletlər kəndində yerləşdirilirlər. Dövlətimiz minlərlə vətəndaşının xarici ölkələrdən təxliyə olunmasına kömək göstərib və bu proses qrafik üzrə yenə davam etdirilir. Azərbaycana qayıtmaq istəyən vətəndaşlarımız bu məqsədlə yaradılmış xüsusi portalda qeydiyyatdan keçərək növbəlilik prinsipi əsasında dövlət hesabına ölkəmizə gətirilirlər.

Azərbaycanın koronavirusla bağlı mübarizə metodları beynəlxalq aləmdə də böyük rəğbətlə qarşılanır. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı bir neçə dəfə bu sahədə nümunəvi ölkə adlandırıb. Dövlətimizin həm pandemiyanın ilk mərhələsində, həm də sonrakı dövrlərdə gördüyü operativ tədbirlər, atdığı məhdudlaşdırıcı addımlar yüksək qiymətləndirilib.

İyunun 9-da Bilgəh qəsəbəsində, Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılmış modul tipli xəstəxana komplekslərinin açılışı zamanı Prezident İlham Əliyev indi əsas vəzifənin insanları bu xəstəlikdən qorumaqdan, onların həyatını xilas etməkdən ibarət olduğunu bildirdi: "Əlbəttə ki, itkilərimiz də olub, amma bəzi ölkələrlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bu, onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur. ...Bu müddət ərzində Azərbaycan dövləti çox böyük məsuliyyət göstərib, ilk növbədə, ölkə daxilində. Çünki iki seçim var idi - ya iqtisadiyyatı xilas etmək, ya da insanların sağlamlığını. Şəxsən mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olubdur, o cümlədən pandemiya dövründə. Ona görə biz şüurlu şəkildə, bunun iqtisadi fəallığımıza mənfi təsir göstərəcəyini bilərək məhdudlaşdırıcı addımlara getdik".

### Vətəndaş məsuliyyəti

Azərbaycan iqtisadiyyatı bu məhdudiyyətlərdən ziyan çəksə də, itkilər tezliklə bərpa olunacaq. Ölkəmizin iqtisadi potensialı, malik olduğumuz resurslar, iqtisadiyyata dəyən ziyanların minimallaşdırılması üçün həyata keçirilən dəstək tədbirləri buna imkan verir. Dövlətimiz bu dövrdə yaranmış qlobal iqtisadi vəziyyətlə bağlı çətinliklərlə üzləşmiş vətəndaşlarımızın da qayğısına qalır. Onlara aylıq maddi yardım göstərilir. Azərbaycan dövləti bu məqsədlə ayrılmış vəsaitlərin həcminə görə də liderdir. Belə ki, həm pandemiyaya qarşı mübarizəyə, həm yaranmış vəziyyətdən ziyan çəkən vətəndaşlara, o cümlədən aztəminatlı ailələrə, sahibkarlara kömək məqsədilə 3,5 milyard manat vəsait nəzərdə tutulub. Müvafiq tibbi avadanlıqların, dərman preparatlarının alınması üçün böyük məbləğdə vəsait ayrılıb. Həyata keçirilən tədbirlər hesabına ölkəmiz yaranmış iqtisadi durumdan tez bir zamanda çıxacaq. Davamlı inkişaf dinamikasını yenidən bərpa edəcək. Xəstəlikdən dünyasını dəyişən insanları isə əfsus ki, həyata qaytarmaq mümkün deyil. "İnsanların həyatı qiymətsizdir. Ona görə bu günə qədər və bundan sonra bizim üçün əsas amil insanların təhlükəsizliyi, sağlamlığıdır" - deyir dövlət rəhbərimiz.

Bu vəziyyətdən mümkün qədər az itkilərlə çıxmağımız isə vətəndaş olaraq hər birimizin ictimai məsuliyyətindən asılıdır. Azərbaycanda bu xəstəlikdən sağalıb evə yazılanların yoluxanların sayını üstələməsi, ölüm hallarının baş verməməsinə hamılıqla çalışmalıyıq. Bu, yerinə yetirilməsi vacib olan son dərəcə sadə bir vəzifədir. Qapalı yerlərdə tibbi maska taxmaqla, sosial məsafəni gözləməklə, dezinfeksiya tədbirlərinə və müəyyən edilmiş digər karantin qaydalarına əməl etməklə hər kəs bu vəzifəni yerinə yetirib, dövlətimizin koronavirusla mübarizə tədbirlərinə töhfə verə bilər. Bu, bizim 17 İyun Tibb İşçilərinin Peşə Bayramı Gününə də ən layiqli hədiyyəmiz olardı. Çünki xəstəliyə yoluxan hər kəs, onların yükünün yüzlərlə xəstə sayı qədər artması həkimlərin gərgin iş günlərinin, yuxusuz gecələrinin daha da uzanması deməkdir.

Gəlin özümüzü və doğmalarımızı qorumaqla dövlətimizin də, tibb işçilərimizin də işini yüngülləşdirək.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Ağ xalatlı, nur üzlü, yorğun simalar...

Koronavirus pandemiyasına qarşı mübarizənin ön cəbhəsində dayananların fədakarlığı ən yüksək qiymətə layiqdir





Tibb işçiləri, təəssüf ki, bu il öz peşə bayramlarını koronavirus pandemiyası ilə mübarizədə keçirirlər.

Koronavirusla mübarizədə öz fədakarlıqları ilə seçilən həkim və tibb işçilərinin əməyi xüsusilə qeyd edilməlidir. Bu gözəgörünməz bəla ilə mübarizənin ön cəbhəsində olan tibbi personalın gecə-gündüzünün olmaması nəticəsində minlərlə insan amansız ölümün pəncəsindən xilas edilib.

Həmin mübariz həkimlərimizdən biri olan Gülara Abbasova da aylarla ailəsindən uzaq düşüb və Hippokrat andına sadiqlik nümayiş etdirərək vətəndaşlıq, həkimlik borcunu şərəflə yerinə yetirənlərdəndir.

15 iyun 1975-ci ildə Sumqayıtda anadan olan G. Abbasovanın valideynlərinin ağlına da gəlməzdi ki, qızları neçə illərdən sonra ölüm-qalım dilemması qarşısında qalan insanların köməyinə çatacaq, onları amansız və vaxtsız ölümün pəncəsindən xilas edəcəkdir.

### "Uğursuzluq"dan qələbəyədək...

Gülara Abbasova illəri bir göz qırpımında yola saldı: gözlərini açdı ki, Sumqayıtdakı 1 nömrəli orta məktəbi yüksək qiymətlərlə bitirib, kimya-biologiya üzrə fənn olimpiadalarının qalibidir. Arzusu həkim olmaq idi. Ona görə də beş il ardıcıl olaraq Azərbaycan Tibb İnstitutuna qəbul üçün sənəd verdi. Müsabiqədən keçə bilməsə də, bu "uğursuzluq" onu qətiyyən ruhdan salmadı. Həmin müddət ərzində o, Sumqayıt Tibb Texnikumunu N.Nərimanov təqaüdü almaqla müvəffəqiyyətlə bitirdi.

Nəhayət, həyat onun üzünə gülməyə başladı: O, ATİ-nin Müalicə-profilaktika fakültəsinə qəbul olaraq anestezioloq-reanimatoloq ixtisasını seçdi. Bu o zamanlar idi ki, sinif yoldaşları, qonşuları Qarabağda gedən döyüşlərə yollanırdılar. Tələbə olsa da, ərazilərimizin erməni daşnaklarından qorunması yolunda canlarını Vətənə sipər edənlərin yanında olmaq və bu məqsədlə də ön cəbhəyə yollanmaq üçün Sumqayıt Hərbi Komissarlığına müraciət etdi. Bu tələbəni yolundan döndərməyə çalışsalar da, o, həmin ağır günlərdə cəbhədə həkimlik peşəsinə ciddi ehtiyac olduğunu əsas gətirirdi. Hərbi komissarlığın əməkdaşları onu ailəsinə gətirəndə qərar qəti oldu: "İnstitutu bitirməyin vacibdir"

Azərbaycan Tibb İnstitutunu bitirdikdən sonra o, 9 il Sumqayıtda, yəni dünyaya göz açdığı 1 nömrəli Doğum evində çalışdı. Sonra isə ailə həyatı ilə bağlı olaraq Bakıya köçdü və Mərkəzi Neftçilər Xəstəxanasında Anesteziologiya-reanimasiya və intensiv terapiya şöbəsində işləməyə başladı. Hazırda həmin şöbənin müdiri olan həkimin bacısı Norveçdə tibb işçisidir. Qızlarından biri isə Oslo şəhərindəki Tibb institutunda təhsil alır.

Yetmiş gündən artıqdır ki, koronavirus pandemiyasının ölkəmizdə yayılmasına qarşı mübarizənin ön cəbhəsində dayanan G.Abbasova hazırda bu bəladan əziyyət çəkən xəstələrin yaxın-uzaq qohumlarının dilinin əzbərinə çevrilib.

### Öz işinin fəxarətindən simasına nur çökmüşdü

G. Abbasova nəinki öz peşəsi, həm də vətənpərvərlik duyğuları ilə insanlara xidmət göstərir. Videoreportajlarda gördüyümüz həkimlər komuflyaj paltarlarda və maskada olduqlarına görə onların nə gözlərini, nə də sifət cizgilərini seçə bilirik. Bu dəfə isə insanlara şəfa verən ana, qadın telefonun ekranından baxırdı. O qədər xoşbəxt idi ki... Çünki daha bir dəfə şər qüvvənin üzərində qələbə çalmışdı. Bunun sevincini xəstə yiyələrinə çatdırmağı özünə borc bildiyini dedi. Öz işinin uğurlu nəticəsindən simasına da nur çökmüşdü...

Onunla bir neçə dəqiqəlik telefonla görüntülü söhbətdən bir əsər də yazmaq olardı. İş yoldaşı Mehparə Dadaşzadə onun sözünə qüvvət verdi: "...İndi bu qızmar yay günlərində vətəndaşlarımız evdə, işdə, küçədə bir köynəklə belə istidən bezdikləri halda, biz elə olur ki, 6-8 saat bu komuflyajı əynimizdən çıxarmırıq. Ancaq dözürük və bilirik ki, müqəddəs iş görürük. Bilirik ki, bu ağır günlərdə insanlara göydəki Allahdan sonra bir udum nəfəs almağa biz də yardımçı oluruq..."

Onlar həm də könüllülərdir. Bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci ilin "Könüllülər ili" elan edilməsi ilə bağlı sərəncam imzalayıb. Qəfil gələn və gözəgörünməz bu koronavirusdan bizi xilas etmək üçün səfərbər olunan ağ xalatlı həkimlərimizin iş başında hansı şəraitdə çalışmaları maraqlı olduğu qədər də əzablı və dözülməzdir.

Reanimasiya şöbəsinin müdiri, həkim-reanimotoloq Gülarə Abbasova, tibb bacılarından Mehparə Dadaşzadə və Zahirə Həsənova beş-üç dəqiqəlik dincəlmək üçün geyimlərini və maskalarını çıxarırlar. Aman Allah, bu qapalı şərait onları nə hala salıb?! Tanınmaz dərəcədə dəyişiliblər: arıqlamaları bir yana, baş geyimləri, xüsusən də maskanın rezinləri onların üz-gözlərini nə hala saldığının fərqində olmasalar da, sanki bir əsr qocalıblar. Amma bu, onların xidmət mədəniyyətini, peşə borclarını unutdurmayıb.

Şöbə müdiri Gülarə Abbasovanın ilk fikri belə oldu: "Bu reanimasiya şöbəsində həkim Samirə Məmmədova ilə mənim rahat işləməyimizin səbəbkarları indi sizə siyahısını verdiyim Mərkəzi Neftçilər Xəstəxanasının tibb işçiləri və sanitarlarıdır. İlk növbədə, əziyyətə qatlaşan onlardır "

Həkimin verdiyi siyahıdan məlum olur ki, onunla bu ağır günlərdə çiyin-çiyinə dayanan Kəmalə Əliyeva, Səbinə Əliyeva, Zahirə Həsənova, Balacaxanım Babayeva, Günel Baxışova, Dillər Məmmədova, Mehparə Dadaşzadə, Vəfa İsmayılova, Xəyalə Hacıyeva, Gültəkin Məmmədova, Aysel Bağırova, Könül Əzizova, Qismət Mirzəhəsənova, Zərifə Həsənova, Leyla Əlibəyli, Arzu Mədətli, Sehranə Cəbiyeva, Əfsanə Müzəffərova, Könül Quliyeva, Tirana Xalapova kimi tibb bacılarıdır. Bunlardan savayı, xəstələrin sağalması yolunda fədakarlıq göstərən Arzu Məmmədova, Sevinc Hüseynova, Telman Abbadov, Mətanət Rüstəmi, Pərvanə Əzimova, Marina Nəsibova, Rəmziyyə Nəsirova, Elman Abbasov, Nailə Babayeva, Dilarə Muxtarova kimi kiçik tibb işçiləri də az deyil.

### Unutmayaq ki, xəstələrin sayı həkimlərdən qat-qat çoxdur

G. Abbasova yorğun olsa da, ölkə vətəndaşlarına ürək sözlərini demək üçün fürsətdən istifadə etdi: "...Onlar olmadan heç bir xəstə sağalmaz. Siz bilirsinizmi ki, buradakı palatalarda gündə iki dəfə yataq bezləri, xəstələrin paltarları, örtükləri, pərdələri dəyişilir?! Burada işlədilən hər şey birdəfəlikdir. Burada təmizliyi təmin etmədən müalicənin nəticəsini ala bilməzsən. Bizim kollektiv, ilk növbədə, tibb bacıları və kiçik tibb işçiləri ilə güclüdür. Kiçik personalımız və ümumiyyətlə, COVID-19-la mübarizə aparan bütün tibb işçiləri günlərlə özündə olmayan və nəfəs aparatlarına qoşulmuş xəstələrin qulluğunda dayanır və onların yataqlarını gündə bir neçə dəfə təmizləyirlər. Mən öz həkim peşəmlə şərəf duyuram. Unutmayaq ki, xəstələrimizin sayı həkimlərdən çoxdur, özü də lap çox.

Bəzi insanların məsuliyyətsizliyinin, etibarsızlığının və inamsızlığının ağrısını və ağırlığını isə dövlət, eləcə də bu mübarizədə düşmənə qalib gəlmək üçün xəstəxana səngərlərinə atılan və ağ xalatlarını hava keçirməyən komuflyajlarla dəyişən tibb işçilərimiz çəkirlər. Nə olar, dövlətimizə, doğmalarımızın keşiyində duran TƏBİB-in tibb personalına əziyyət və ağrı verməmək üçün məsuliyyətli olun. Tələb və qaydalara riayət edin".

Çində COVID-19-la mübarizə sona çatanda əhali tibb işçilərini ayaq üstə alqışladı. Çünki onlar bu dərdin acısını gördülər və içərilərindən keçirdilər. Bu, Çin xalqının tibb işçilərinə verdiyi dəyər idi.

Həkim daha sonra bildirdi ki, briqadada evində xəstəsi olan işçilər var. Eləsi də var ki, körpə uşağını qoyub gəlib: "Rəhbərliyimiz bəzilərinə ailə şəraiti ilə əlaqədar olaraq və hətta işdən ayrılmağa icazə belə vermək istəsə də, bizim qəhrəmanlarımız səngəri boş qoyub, bir udum havaya ehtiyacı olan xəstələri tərk edib getmək istəmirlər. Mən martın 26-dan 27-nə keçən gündən buradayam. Xəstəxanamızın COVID-19-a uyğunlaşması prosesində iştirak etmişəm. Burada hər bir çarpayının, hər bir aparatın necə işləməsinə cavabdehəm. Elə vaxt olur ki, heç gecəni 2 saat belə yatmırıq. Bəzən xəstəni ağır vəziyyətdən çıxarmaq üçün səhərə qədər mübarizə aparırıq. Bir qızımla uzaqda olduğuna görə onlayn görüşürəm. Buradakı 10 yaşlı qızımı isə bircə dəfə şüşənin o biri üzündən görmüşəm. Bizimlə işləyənlərin hamısının ömür səhifəsi burada belə yazılır. Biz də evimizə getmək, doğmalarımızı qucaqlamaq, ailəvi istirahət etmək istəyirik. Bizim əlimizdən bu şansımızı almasınlar. Unutmasınlar ki, xəstələr həkimlərdən çoxdur. Və həkimlərimiz, tibb personalımız da hər gün bu xəstəliyə tutula bilərlər. Həkimlərin də bir gün gücü azalsa, onda sizi kim sağaldacaq? Siz çox, biz az. Gəlin, bir-birimizi sevə-sevə yaşayaq".

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Andına sadiq qalanlar

Bu da bir tarix, bu da bir həqiqətdir ki, hər il iyunun 17-də böyük təntənə ilə qeyd etdiyimiz Tibb işçiləri günü XXI əsrin 20-ci ilində qanlı-qadalı koronavirusla mübarizə dövrünə təsadüf etmişdir. Bu bayram ərəfəsində ilk yada düşən həm də odur ki, bəşəriyyəti qəfil ölüm təhlükəsi ilə üz-üzə qoyan bu pandemiyaya qarşı mübarizədə ən böyük məsuliyyət, ən böyük çətinliklər ağ xalatlı tibb işçilərinin üzərinə düşmüşdür. İstər səhiyyə, istərsə də iqtisadi baxımdan dünyanın ən inkişaf etmiş ölkələrini belə çıxılmaz vəziyyətə qoyan COVID-19 pandemiyası ilə ölüm-qalım məsələsində ölkəmizdə bütün insanların köməyinə çatan, ilk növbədə, Azərbaycan Prezidentinin uzaqgörən siyasətinə əsaslanan qabaqlayıcı tədbirlər, digər tərəfdən də Hippokrat andına sadiq qalan həkimlər olmuşdur.

Xalqımızın COVID-19 pandemiyası ilə üzləşdiyi belə çətin bir vaxtda Azərbaycan Prezidenti İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışı, yəni öndə ölkəmizin tibb işçiləri olmaqla problemə strateji baxışı və hamını bu mübarizədə bir olmağa, həmrəyliyə çağırışı öz bəhrəsini verməkdədir. Dövlət başçısının təşəbbüsü ilə "Biz birlikdə güclüyük!" şüarı altında qısa müddət ərzində respublikamızda görülən işlər, ilk növbədə, ölkə rəhbərinin "Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" 19 mart 2020-ci il tarixli fərmanı ictimaiyyətdə böyük məmnunluq doğurmuşdur. Çünki fərmana əsasən, respublikamızda əhalinin sağlamlığının qorunması, dünya standartlarına uyğun tibbi yardımla təmin olunması ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetlərindən hesab edilirdi. Koronavirus infeksiyasının respublikamızda yayılmasının qarşısını almaq və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərin maliyyə dəstəyini təmin etmək məqsədilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılmışdır. Bu fondun xətti ilə pandemiyanın qarşısının alınması və tibb işçilərinin fəaliyyətinin gücləndirilməsi ön plana çəkilmişdir. Xatırladaq ki, bu qəbildən olan fond dünyada ilk dəfə məhz Azərbaycanda təsis edilmişdir. Fond fəaliyyətə başladığı günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva birillik əməkhaqqı məbləğlərini Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianə etmişlər. Bundan sonra qısa müddətdə dövlət qurumları, bir çox fiziki və hüquqi şəxslər də könüllü olaraq bu təşəbbüsə qoşularaq fonda müəyyən miqdarda ianələr köçürmüşlər.

Koronavirusa qarşı çalışan tibb işçilərinin əməyini yüksək dəyərləndirən ölkə Prezidenti "Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" sərəncam imzalamışdır. Sərəncama əsasən, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə (tarif) maaşının 3-5 mislinədək miqdarda müddətli əlavələr müəyyən edilmişdir. Koronavirus infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan tibb işçilərinin və könüllülərin də əməyinin ödənilməsi nəzərə alınmışdır.

Qeyd etmək yerinə düşər ki, riskli və ölümlə əlbəyaxa şəraitdə çalışan tibb işçilərinin zəhmətini yüksək qiymətləndirən dövlət başçısı bu zaman əhalinin sosial müdafiəsinə qayğını da ön plana çəkmişdir. Dövlət sektoru üzrə 900 mindən çox işçinin, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqı saxlanılmaqla məşğulluğu təmin edilmiş, hər hansı əsassız ixtisarlara yol verilməməsi üçün bütün dövlət qurumlarına müvafiq tapşırıq verilmiş, habelə sahibkarlara müraciət olunmuşdur. Pandemiya nəticəsində işsiz qalan şəxslərə birdəfəlik ödəmələr həyata keçirilmiş, habelə 80 min ailə - 330 min nəfər ünvanlı sosial yardım proqramından faydalanmışdır. Digər sosial-iqtisadi tədbirlər nəticəsində koronavirusla mübarizəyə cəlb edilən yeni tibb heyətinin də əməkhaqının 3,4, hətta 5 dəfə artımla ödənilməsi təmin olunmuşdur.

Qürur hissi ilə qeyd etməliyik ki, Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibb müəssisələrində təcrübəli həkimlərin nəzarəti altında müalicə alırlar. Amma dünyanın bir çox ölkələrində bu xəstəliyə düçar olmuş insanlar ev şəraitində müalicə olunurlar, onları heç xəstəxanalara belə qəbul etmirlər. Bilməliyik ki, ölkəmizdə koronavirusdan ölənlərin sayının az olmasının səbəblərindən birincisi dövlətin və bu sahədə çalışan tibb işçilərinin xəstələrə göstərdikləri diqqət və qayğıdan qaynaqlanırsa, digər başlıca səbəb isə xəstəliyə yoluxmuş bütün pasiyentlərin tibb müəssisələrinə qəbul edilməsində və onlara lazımi tibbi xidmətin göstərilməsindədir.

Azərbaycan Prezidenti İlham Əliyevin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələri çərçivəsində insanların sağlamlığının qorunması və koronavirus infeksiyasının qarşısının alınması istiqamətində görülən tədbirlər sırasında modul tipli xəstəxanaların yaradılması və burada peşəkar tibb işçilərinin çalışması da ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. Paytaxtın Bilgəh qəsəbəsində, həmçinin Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxana komplekslərinin açılışı olmuşdur. Bununla da ölkəmizdə modul tipli xəstəxanaların sayı 4-ə çatdırılmışdır. Xatırlayırsınızsa, ilk modul tipli xəstəxana bundan təxminən bir ay əvvəl, yəni may ayının 7-də istifadəyə verilmişdir. Bu xəstəxanalarda yalnız koronaviruslu xəstələr müalicə olunurlar. Azərbaycan Prezidentinin tapşırığına əsasən, respublikamızda bu tipli xəstəxanaların sayının qısa müddətdə 10-a çatdırılması nəzərdə tutulmuşdur. Odur ki, iyun ayının sonları, iyul ayının əvvəllərinədək daha 6 modul tipli xəstəxananın quraşdırılıb istifadəyə verilməsi istiqamətində işlər sürətlə davam etdirilir.

İyunun 9-da Saray qəsəbəsində modul tipli xəstəxananın açılışında Prezident İlham Əliyev demişdir: "Görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanmışdır və qabaqlayıcı tədbirlər nəticəsində bu gün vəziyyət tam nəzarət altındadır. Son 10 gün ərzində yoluxanların sayı artır. Bu da ondan irəli gəlir ki, yumşalma dövründə bəzi vətəndaşlar məsuliyyətsizlik göstərmişlər. Buna baxmayaraq, vəziyyət tam nəzarət altındadır. Bizim xəstəxanalarda kifayət qədər yerimiz var, reanimasiya şöbələrimizdə də həmçinin. Eyni zamanda iki min çarpayılıq 10 xəstəxanada koronavirus xəstələrinin müalicəsi nəzərdə tutulur. Ancaq biz bütün addımlarımızı elə atmalıyıq ki, ən kritik vəziyyətə hazır olaq, ən böhranlı vəziyyətdə də bütün xəstələrə tibbi xidmət göstərilsin".

Məmnunluq doğuran həm də budur ki, respublikamızda koronavirusa qarşı aparılan mübarizə tədbirləri, habelə dövlət başçısı tərəfindən insanların sağlamlığı naminə qəbul edilən sosial müdafiə qərarları, atılan addımlar beynəlxalq aləmdə də yüksək dəyərləndirilir. Bu mənada ÜST-ün Baş direktoru Tedros Adhanom Gebreyesus tərəfindən Prezident İlham Əliyevə ünvanlanmış məktubda respublikada görülmüş işlərə yüksək qiymət verilərək, Azərbaycan nümunəvi ölkə kimi qiymətləndirilmişdir. Qürur doğuran haldır ki, Tedros Adhanom Gebreyesus tərəfindən ölkəmizdə COVID-19 pandemiyasının təsirinin və miqyasının məhdudlaşdırılması istiqamətində Azərbaycan Prezidentinin yürütdüyü siyasət və atılan addımlar təqdir edilmişdir.

Görünən odur ki, pandemiya dövründə Azərbaycanın səhiyyə sistemində qısa müddət ərzində həyata keçirilən qabaqlayıcı tədbirlər və yenidənqurma işləri uğurlu nəticələrə səbəb olmuşdur. İcbari Tibbi Sığorta Agentliyi və TƏBİB-in fəaliyyəti xüsusilə diqqətçəkəndir. Burada fəaliyyət göstərənlərin əksəriyyəti gənclər və yüksək ixtisaslı tibb işçiləridir. Ekspertlərin fikrincə, belə bir çətin şəraitdə heç bir ölkənin səhiyyə sistemi buna hazır deyildi. Ancaq Azərbaycan dövləti, Azərbaycan səhiyyəsi, xüsusilə tibb işçilərimiz bu çətinliklərin öhdəsindən bacarıqla gəldilər. Modul tipli xəstəxanaların açılışı zamanı Prezident İlham Əliyev məhz bu uğura rəğmən demişdir: "Mən bir daha həkimlərin fəaliyyətini qiymətləndirmək istəyirəm. Mən, Azərbaycan dövləti, Azərbaycan xalqı bu dövrdə gördük ki, həkimlər içdikləri Hippokrat andına sadiqdirlər, öz vəzifə borclarını şərəflə yerinə yetirirlər. Həkimlərin arasında yoluxmalar da var və onlar öz həyatlarını risk altına ataraq xəstələri müalicə edir, onları həyata qaytarırlar. Təsadüfi deyil ki, mənim təşəbbüsümlə ölkəmizin, şəhərimizin yeni simvollarından biri olan Alov qüllələrində məşhur şüar əks olunmuşdur: "Azərbaycan həkimlərinə eşq olsun!"

Milyonlarla insan bu təbrikə qoşulur: Azərbaycan Prezidentinin, Azərbaycan xalqının rəğbətini qazanmış cəfakeş və qayğıkeş tibb işçiləri, bayramınız mübarək!

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı
### *açıq tender elan edir*

**Azərbaycan Respublikasının Mərkəzi Bankı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və ərazi idarələrinin inzibati binalarında quraşdırılmış yanğınsöndürmə qurğularına, sistem və avadanlıqlarına texniki xidmətin satın alınması üzrə açıq tender üsulu ilə elektron satınalma keçirir**

Tender proseduru 17 iyul 2020-ci il saat 15:00-da Dövlət satınalmalarının vahid internet Portalında (https://etender.gov.az/) (bundan sonra - Portal) keçiriləcəkdir.

Tenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün Asan Ödəniş Sistemi vasitəsilə Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına150 (bir yüz əlli) manat məbləğində iştirak haqqı ödəməklə Portal vasitəsilə əsas şərtlər toplusunu əldə edə bilərlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BİK NABZAZ2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı, bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *Azərbaycan dilində tender təklifi (tender təklifi 01 sentyabr 2020-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını **17 iyul 2020-ci il saat 14:00-a** qədər, digər tələb olunan sənədləri isə ən geci **08 iyul 2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim edə bilərlər.

Satınalmaya başlanma vaxtı: **01.10.2020-ci il** tarixdən.

Xidmətin göstərilməsi, işlərin görülməsi və malların təqdim edilməsi müddəti: dövri olaraq 1 il müddətində.

Qiymətləndirmə meyarları:
- qiymət və texniki amillər (iş təcrübəsi, əməkdaşların peşəkarlığı və maddi-texniki baza).

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız Portal vasitəsilə verilir.

Tender prosedurunun hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

***Tender komissiyası***

## “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti
### *açıq tenderə dəvət edir*

Tender 2 LOT üzrə keçirilir:

**LOT- 1. “Bakı Telefon Rabitəsi” MMC-nin inzibati binası və struktur bölmələri üçün yeni yanğınsöndürmə avadanlıqlarının satın alınması, mövcud yanğınsöndürən balonların (quru kimyəvi tozlu və karbon dioksid tipli) texniki müayinəsi və yenidən doldurulması xidmətinin tender üsulu ilə satın alınması**

**LOT- 2. Elektrik və məişət təsərrüfat mallarının satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT- 1. 100 (bir yüz) manat (ƏDV daxil)**

**LOT- 2. 160 (bir yüz altmış) manat (ƏDV daxil)** iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına Asan Ödəniş Portalı vasitəsilə ödəniş etdikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: “Azərpoçt” MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **10 iyul 2020-ci il saat 11:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **20 iyul 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **21 iyul 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı istismarda olan kompüter və server infrastrukturu üçün ehtiyat hissələrinin satın alınması üzrə
### *açıq tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı istismarda olan kompüter və server infrastrukturu üçün müvafiq ehtiyat hissələrinin satın alınması ilə bağlı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru17 iyul 2020-ci il tarixdə saat 12:00-da dövlət satınalmalarının vahid internet Portalında (https://etender.gov.az/) keçiriləcəkdir.

Tenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına 200 (iki yüz) manat məbləğində iştirak haqqı ödəməklə Portal vasitəsilə əsas şərtlər toplusunu əldə edə bilərlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BİK NABZAZ2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak üçün yazılı müraciət;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;.*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *Azərbaycan dilində tender təklifi (tender təklifi 01 sentyabr 2020-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən formada);*
- *iddiaçının müvafiq sahə üzrə ən azı 2 (iki) illik iş təcrübəsini əks etdirən məlumatlar (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu);*
- *iddiaçının ixtisas uyğunluğuna dair tenderin əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər məlumatlar.*

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını **17 iyul 2020-ci il saat 11:00-a** qədər, digər tələb olunan sənədləri isə ən geci **08 iyul 2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim edə bilərlər.

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Xidmətlərin göstərilməsi müddəti: satınalma müqaviləsi imzalandığı gündən etibarən Sifarişçinin sifarişi əsasında 1 (bir) il müddətində həyata keçirilməlidir;

Qiymətləndirmə meyarları: qiymət və zəmanət müddəti.

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə verilir.

Tender prosedurunun hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 16 may 2020-ci il tarixdə “Gəncə şəhərində Kiçik və Orta Biznesin İnkişafı Mərkəzinin fəaliyyətə başlaması üçün təşkilati işlərin görülməsi, mərkəzdə KOB-lara təlim və seminarların keçirilməsi, habelə məsləhət və dəstək xidmətlərinin satın alınması” ilə bağlı verilmiş açıq tender müsabiqəsində iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədlərin qəbulu 19 iyun 2020-ci il saat 16:00-dək, tender təklifi ilə bank təminat sənədlərinin qəbulu isə 30 iyun 2020-ci il saat 16:00-dək uzadılmışdır. İddiaçıların təklifləri 01 iyul 2020-ci il saat 16:00-da açılacaqdır.

***Tender komissiyası***

## Açıq Səhmdar Cəmiyyəti “Standard Insurance” Sığorta Şirkətinin müflis elan olunması ilə bağlı məhkəmə baxışı barədə məlumat

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 19.05.2020-ci il tarixli 24 nömrəli qərarı ilə Bakı şəh., Nəsimi ray., Şəmsi Bədəlbəyli 94 ünvanında yerləşən Açıq Səhmdar Cəmiyyəti “Standard Insurance” Sığorta Şirkətinin sığorta fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş lisenziyası ləğv edilmiş və Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən sığortaçı barəsində iflas prosedurunun başlanılmasına dair ərizə ilə məhkəməyə müraciət edilmişdir.

Açıq Səhmdar Cəmiyyəti “Standard Insurance” Sığorta Şirkətinin müflis elan olunması ilə bağlı məhkəmə baxışı 23 iyun 2020-ci il tarixdə saat 14:30-da Bakıxanov qəsəbəsi, Oskar Əfəndiyev küçəsində yerləşən Bakı Kommersiya Məhkəməsində keçiriləcəkdir.

***İdarə Heyəti***

## ALLAH RƏHMƏT ELƏSİN!

“Azərbaycan” qəzeti redaksiyasının kollektivi qocaman jurnalist, Əməkdar mədəniyyət işçisi

**FƏRMAN BAĞIROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Elman Rüstəmov və bankın kollektivi Mərkəzi Bankın sədrinin müşaviri Əliyar Məmmədyarova həyat yoldaşı

**ELZA MƏMMƏDYAROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbova atası

**HAFİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Hadi Rəcəbli və Hüseynbala Mirələmov tanınmış jurnalist, Əməkdar mədəniyyət işçisi

**FƏRMAN BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

YAP Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmov və aparatın kollektivi aparatın əməkdaşı Aliyə Orucovaya nənəsi

**MİNAYƏ SÜLEYMANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Bakı Metropoliteni” QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbova atası

**HAFİZ RƏCƏBOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi Nadir Rzayevə qardaşı

**ARİF RZAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi

**ƏFLATUN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi

**ƏFLATUN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və aparat işçiləri Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru Şaiq Əsgərova əzizi

**FƏRMAN BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyi Hüquq şöbəsinin müdiri Rafiq Abbasov Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbova atası

**HAFİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi

**ƏFLATUN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Kommersiya Məhkəməsinin kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi

**ƏFLATUN QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Gəncə Hərbi Məhkəməsinin kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi

**ƏFLATUN QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş Prokurorluğun İstintaq İdarəsinin xüsusilə mühüm işlər üzrə böyük müstəntiqi Elmar Məmmədova atası

**ƏLİKRAM MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bədirxan Rzayev, Müstəqim Məmmədov və Xəyyam Nəsibov Şaiq Əsgərova əzizi tanınmış jurnalist

**FƏRMAN BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbova atası

**HAFİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyevə anası

**LEYLA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qaxdan Qabil Əfəndiyev, Yusif Nəzirov, Kamal Muxtarlı və Molla Mollayev Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyevə anası

**LEYLA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Suraxanı Rayon Məhkəməsinin kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi

**ƏFLATUN QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7408
Sifariş 1536
Qiyməti 40 qəpik